Hacı Qəni Camalzadə
Ədhəm Məmmədov

# QƏHRƏMANLIQ ZİRVƏSİ



**Hacı Qəni Camalzadə. Ədhəm Məmmədov**
**QƏHRƏMANLIQ ZİRVƏSİ**
Bakı, "Qanun" nəşriyyatı, 2023, 100 səh.

Ölçü: 130x200 mm
Cild: qalın
Çapa imzalandı:

Tərtibatçılar: **Hacı Qəni Camalzadə,**
*AYB-nin üzvü*
**Ədhəm Məmmədov,**
*Vətən Qəhrəmanları Cəmiyyətinin sədri,*
*Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma*
*İB-nin Nərimanov rayon Nümayəndəliyinin sədri*

Texniki dəstək: **Nərmin Səfərova**
*Vətən Qəhrəmanları Cəmiyyətinin sədr müavini,*
*Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma*
*İB-nin Nərimanov rayon Nümayəndəliyinin sədr müavini*

Kitabın redaktoru: **Əbdül Səfabəyli**
*Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma*
*İB-nin sədr müavini*

Şeir və zəfərnamələr: **Agacəfər Həsənli,**
*AYB-nin üzvü*

Esse və elegiyalar: **İdris Şükürlü,**
*AJB-nin üzvü, Əməkdar Jurnalist*

Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-

© Hacı Qəni Camalzadə, Ədhəm Məmmədov, 2023
© Qanun nəşriyyatı, 2023

“QƏHRƏMANLIQ ZİRVƏSİ” kitabı
polis polkovniki
Nizami Qocayevin dəstəyi ilə çap olunub





Polkovnik
NİZAMİ MEHRALI OĞLU QOCAYEV
01 mart 1955-ci ildə anadan olub.
I Qarabağ müharibəsinin qazisidir.
Uzun müddət polis orqanlarında çalışıb.
1995-ci ildə “Azərbaycan bayrağı” ordeni ilə
təltif edilib.

**Azərbaycanın Milli Qəhrəmanlarının və Vətən Müharibəsi Qəhrəmanlarının qəhrəmanlığı xalqımızın qürur mənbəyidir.**

Azərbaycan Respublikasının Milli Qəhrəmanlarını Tanıtma İB
və Vətən Qəhrəmanları Cəmiyyəti (Bakı şəhəri, Nərimanov rayonu)



**Azərbaycanın Milli Qəhrəmanı**
**MƏMMƏDOV SAHİL ƏLƏMDAR OĞLU**
**(25.02.1964)**

Sahil Ələmdar oğlu Məmmədov 25 fevral 1964-cü ildə Qərbi Azərbaycanın Uluxanlı rayonunun Yuxarı Necili kəndində anadan olmuşdur. Altı yaşında əmisi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. 1971-1981-ci illərdə Bakıxanov qəsəbəsindəki 96 saylı tam orta məktəbdə təhsil almışdır. Orta məktəbi tamamladığı il həqiqi hərbi xidmətə çağırılmışdır. 1982-ci ildə hərbi xidməti başa vuran Sahil Məmmədov SSRİ DİN Ali Siyasi Məktəbinə daxil olmuşdur. 1987-ci ildə ali təhsilini bitirəndən sonra Ukraynada hüquq-mühafizə təşkilatlarında xidmət eləmişdir.

Sahil Məmmədov elinə-obasına bağlı azərbaycanlı olduğundan Birinci Qarabağ müharibəsinin qızğın vaxtında Azərbaycana qayıtmışdır. 1992-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin hərbi polis alayında xidmətə başlamışdır. Sahil Məmmədov bölüklərdən birinin komandiri təyin edilmişdi. Tez-tez cəbhə bölgələrinə ezam olunurdu. 1992-ci ilin payızında Sahil Məmmədov bölüyü ilə birlikdə Zəngilan rayonuna ezam olundu. Xidmət yerinə çatan kimi dərhal fəaliyyətə başladı. Qazançı, Ağkənd, Dərəli kəndlərinin müdafiəsini təşkil elədi. Bölük səngərlərdən çıxmırdı. Erməni yaraqlıları onları Qazançı istiqamətində sıxışdırmağa cəhd edirdilər. Sahil Məmmədov və onun bölüyü şücaətlə vuruşurdu, bir addım da geri çəkilmirdi. Ermənilər yaxşı silahlanmışdılar, Azərbaycan mövqelərini top, minaatan və raketlərlə atəşə tuturdular. Döyüşlərin birində Sahil Məmmədovun yanında mərmi partladı. O, sağ qolundan, bir də sağ ayağından ağır yaralandı. Onun həyatını xilas eləmək üçün Bakıya yolladılar.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Məmmədov Sahil Ələmdar oğlu “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.

Vətənin igid oğlu ailəlidir, bir övladı var.

Sahil Məmmədov uzun müddət hospitalda müalicə alandan sonra sağaldı. 1994-cü ildən DİN-nin Pasport, Viza və Qeydiyyat İdarəsində baş inspektor vəzifəsində çalışır.

Allah ona uzun ömür və can sağlığı versin.

**ZƏFƏRNAMƏ...**
**Qəhrəmanın dilindən...**

Bir payız səhərində,
düşmən üstə yeridim.
Nəfəs dərdim dərindən,
nə susdum, nə kiridim...

Qarşıda idi yazım,
gözləyirdi qazancım.
Cəsarət – alın yazım,
qəhrəmanlıq – qazanım.

Zəngilandan Ağkəndə,
uzandı qalib yolum.
Çənim düşdü kəməndə,
Od tutdu sağım, solum.

Mərmi partlayışına,
uca dağlar səs verdi.
Yurdun çopur daşına,

bulaqlar nəfəs verdi.
Başının üstündədir
Qalibiyyət bayrağım!

## TALE QİSMƏTİ
*(esse)*

Deyirlər hər kəsin öz alın yazısı, tale qisməti var. İnsan doğulanda alın yazısı, bəxti, taleyi də onunla birgə gəlir dünyaya. Lakin burası da var ki, bəzən insanlar öz alın yazılarını özləri yazırlar. Elə bir igidlik, cəsurluq, qəhrəmanlıq göstərirlər ki, onların həyatında silinməz iz buraxır, əbədiyyətə dönür, xalqın yaddaşında qalır.

Bölük komandiri Sahil Məmmədovun arzuları sahilsizdi, bitib-tükənmək bilmirdi. Torpaqlarımızı işğalçılardan qorumaq, ata-babaların şanlı döyüş yolunu davam etdirmək, evinə sağ-salamat qayıtmaq arzusunda idi. O, Zəngilanın Qazançı kəndi istiqamətində gedən qanlı vuruşmalarda qətiyyət və şücaət göstərdi. Tabeliyindəki əsgərlərlə neçə-neçə uğura imza atmışdı, keçilməz yollar keçmişdi. Vətən fədailəri bu yurdun, bu torpağın qəhrəmanlıq tarixini öz qanı ilə yazdılar. Vətənə, yurda tuşlanmış yağı güllələrini öz bədənlərində dəfn etdilər: qoymadılar ki, Vətənin gülünə, çiçəyinə, dağına, daşına zəhərli mərmi dəysin.

Yaxşı silahlanmış düşmən qana susamışdı. Atışmadan yer-göy lərzəyə gəlmişdi, havadan barıt qoxusu gəlirdi. Əks tərəfin atdığı top və raket mərmilərindən biri Sahil Ələmdar oğlunun yanında partladı, torpağı göyə sovurdu. Sahil qolundan və ayağından yaralansa da yaşamağa inamı, həyat eşqi sönmür. O, qələbənin dadını hiss etməmiş həyatdan getmək istəmir.

Sahil Məmmədovu Bakıya çatdırırlar. Ağ xalatlı ömür keşikçiləri onu əməliyyat edir, sağaldırlar. O, dinc əməyə başlayır, həmişə özünü sırada hiss edir.

Bəli, Sahil Məmmədov öz taleyini yazanlardan, vətən fədailərindən, qəhrəmanlardan biri oldu.

Bu ad ona qalibiyyətə sahib olmuş xalqın övladı kimi yaraşır...





**Azərbaycanın Milli Qəhrəmanı**
**İBAD MÖVSÜM OĞLU HÜSEYNOV**
**(18.10.1970)**

İbad Mövsüm oğlu Hüseynov 18 oktyabr 1970-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirəndən sonra 1988-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Dağlıq Qarabağda azərbaycanlılarla ermənilər arasında hərbi toqquşmalar başlayanda İbad Hüseynov Uzaq Şərqdə, Amur vilayətində Sovet Ordusu sıralarında qulluq edirdi. Hissədə ondan başqa da bir neçə azərbaycanlı var idi. İbad Hüseynovun təşkilatçılığı və istiqanlılığı sayəsində həmyerlilər arasında mehribanlıq yaranmışdı, dar ayaqda bir-birinin təəssübünü çəkirdilər.

20 yanvar 1990-cı ildə Sovet hökumətinin Bakı şəhərinə qoşun hissələri yeritməsi, dinc əhalinin güllələbaran eləməsi xəbərini alan İbad Hüseynov yerliləri ilə məsləhətli bir qərar qəbul elədi. Onlar Vətənə geri qaytarılması tələbi ilə komandanlıq qarşısında məsələ qaldırdılar. Amma tələblərinə məhəl qoyulmadı. İbad Hüseynov bir neçə yoldaşı ilə müddətsiz aclıq aksiyasına başladılar. Nəticədə hissənin hərbi komandanlığı onların tələbini yerinə yetirir. İbad Hüseynov və aclıq aksiyasında iştirak edən digər əsgər yoldaşları dörd ay öncədən Sovet Ordusu sıralarından tərxis edilirlər.

İbad Hüseynov 1990-cı ildə Azərbaycana qayıdır. Yubanmadan düşmənlə üz-üzə qalmış doğma Xocavənd rayonuna gedir. Dərhal yerli özünümüdafiə dəstələri yaratmağa başlayır. Hər şey qayda ilə gedirdi, amma dəstə üzvlərini silahlandırmağa silah tapılmırdı.

Artıq Dağlıq Qarabağdakı toqquşmalar qanlı döyüş fazasına qədəm qoymuşdu, münaqişələr intensivləşmişdi, yalnız yüngül silahlardan yox, iri çaplı silahlardan, topdan-minaatandan istifadə olunurdu. Erməni terror qrupları azərbaycanlılar yaşayan rayonlara, kəndlərə hücum edirdilər, silahsız Azərbaycan əhalisinə xüsusi qəddarlıqla divan tuturdular. Onlar bu müharibəyə çoxdan hazırlaşmışdılar. Rusiyanın regionda yerləşən qoşunlarının

silah arsenalları ermənilərin ixtiyarına verilmişdi. Düşmənlər xarici ölkələrdəki diasporların köməyi ilə də silah gətirdə bilirdilər.

İbad Hüseynov silah-sursat problemini həll etmək üçün "kəşfiyyat-diversiya" dəstəsi yaratdı. Dəstə üzvlərinin bir neçəsi erməni dilini yaxşı bilirdi. Onlar gecə erməni tərəfə keçir, düşmənləri məhv edir, silahlarını yığıb gətirirdilər. Hərbi "təchizatın" bu üsulu nəticəsini verdi, erməni yaraqlılarının Xocavənd istiqamətində hücumlarının qarşısı alındı.

26 dekabr 1993-cü ildə İbad Hüseynov minaya düşərək ağır yaralandı. Başına, qoluna, əlinə və ayağına batan qəlpələrdən əsgər komaya düşmüşdü. Onun sağ qalacağına ümid qalmamışdı. 28 gün komada qalmışdı. Moskvadan dəvət olunan məşhur cərrah heç nəyə zəmanət verməsə də əməliyyata başlayır. Bir neçə saat ölüm ayağında olan əsgər həyatı uğrunda mübarizə gedir. Həkim daxili qanaxmaları ləğv edir, kəllə nahiyəsini qəlpələrdən təmizləyir, yaralını ölümdən qurtarır. İbad Hüseynov uzun müddət müalicə alandan sonra özünə gəlir. Tədricən sağ ayağının və sağ qolunun hərəkəti bərpa olunur. Hospitaldan çıxandan sonra cəbhə xəttindəki hərbi hissəsinə qayıdır. Döyüşlərdə göstərdiyi igidliyə görə İbad Hüseynov 9 oktyabr 1994-cü ildə Azərbaycan Respublikasının

Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilir.

9 dekabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə İbad Mövsüm oğlu Hüseynov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Qədirbilən xalqımız qəhrəman oğlunu unutmadı. İbad Hüseynov onlarla təşkilatın medalları ilə təltif edildi. 2010-cu ildə ona həsr olunmuş "Əsgər", 2010-cu ildə "Kəşfiyyatçı", 2013-cü ildə "Qorxulu yuxuların qəhrəmanı", 2016-2017-ci illərdə "Xüsusi təyinatlı İbad 1-2" filmləri çəkilib. 2016-cı ildə Ağcabədi şəhərində, 2017-ci ildə Abşeron rayonunda İbad Hüseynovun adına küçələr verilib. Qardaş Türkiyənin onlarla şəhərində İbad Hüseynovun adına küçə və parklar salınmışdır.

İbad Hüseynovun qəhrəmanlığına, həyatına həsr olunmuş onlarla kitab, roman, povest, şeir və hekayə yazılıb.

Allah ona ömür versin.

**ZƏFƏRNAMƏ...**
**Vətənin fəxri...**

Hələ uzaq Şərqdə - Amurda ikən,
göstərdi hamıya dəyanətini.
Necə bağışlasın xocavəndli kənd
silsilə erməni xəyanətini...

Bir axşam eşitdi Vətən dardadır,
doğma Qarabağda qan var, qada var.
Mənfur erməniyə kömək naminə,
başqa ölkələrdən gəlib muzdlular.

Qayıtdı Bakıya İbad Hüseynov,
sığmadı içinə hikkəsi, hirsi.
Tələsdi təkbətək mücadiləyə,
döyüşdəcə versin düşmənin dərsin...

Qartaltək şığıdı yağı üstünə,
Dayanmaq bilmədi, durmaq bilmədi.
Pusquda gizlənmiş neçə qafili,
Məhv edənə kimi üzü gülmədi.

İbad od püskürdü: “Burda yağının,
murdar yuvasını dəbərtməliyəm.
Özünü peşəkar soyan muzdlunu,
elə yerindəcə gəbərtməliyəm”.

Dediyi sözünün üstündə durdu,
vuruşdu qədrini bildi hər anın.
Yanası ordenli-medallı əsgər,
fəxrinə çevrildi Azərbaycanın.

## GÜLLƏ DƏ DİKSİNDİ BAXIŞLARINDAN

*(esse)*

Mənə elə gəlir ki, İbad Hüseynovu təkcə Azərbaycanda yox, onun hüdudlarından uzaqlarda da yaxşı tanıyırlar...

İbad Hüseynov Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda canını belə əsirgəməyən qəhrəman oğullarımızdan, düşməni peşman edən fədailərimizdən biridir. İbadın Vətən sevgisi, yurd məhəbbəti o qədər güclü olub ki, güllə də diksinib baxışlarından!

İbad haqqında söz deməyə, yazmağa qələm və dil acizdir. Nə qədər yazılsa, deyilsə də azdır.

İbada həsr olunmuş “Əsgər”, “Kəşfiyyatçı”, “Qorxulu yuxuların qəhrəmanı”, “Xüsusi təyinatlı İbad 1-2” filmlərinə baxmaq, kitabları və yazıları, poema və şeirləri oxumaq kifayətdir ki, onun qeyri-adi, əfsanəvi qəhrəmanlığı gözlərimizin önündə canlansın. Belə qəhrəmanlığın sahibi yalnız İbad

Hüseynov kimi vətəni özündən çox sevənlər olar. O, döyüşə atılanda, yaralı əsgərləri xilas edəndə, hücumların qarşısını alanda nə ad, nə mükafat, nə şöhrət, nə də sağ qalmaq barədə fikirləşirdi. Sadəcə özünü düşmənə borclu hesab edirdi, qisas gününə, böyük qələbəmizə, Qarabağın azad ediləcəyinə inanırdı. Bu inamla da arzusuna çatdı.

İbad 1993-cü ildə minaya düşərək ağır yaralanır. O bir ay komada qalır. Moskvalı məşhur cərrahın bir neçə saat ərzində İbadın sağ qalması uğrunda ölüm-dirim mübarizəsi müsbət nəticə verir, İbad sağ qalır, ordenlərə, medallara, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülür.

İbad Hüseynov bu ada beşqat layiqdir!





**Azərbaycanın Milli Qəhrəmanı**
**ZABİT ADİL OĞLU QULİYEV**
**(06.06.1975 )**

Zabit Quliyev 6 iyun 1975-ci ildə Kürdəmir rayonunun Ərəbxana kəndində anadan olmuşdur. 1992-ci ildə Ərəbxana kənd orta məktəbini bitirmişdi. Bir müddət rayon təsərrüfatlarında fəhlə qismində çalışmışdır. 1993-cü ildə Kürdəmir Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. O vaxtlar Azərbaycan Milli Ordusu təzə təşəkkül tapırdı. Zabit hərbi hissədə qısa təlim keçəndən sonra cəbhə bölgəsində xidmətə başlamışdır. Füzuli, Ağdam, Ağdərə, Tərtər istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Sərrast atəşlə düşmənin zirehli texnikalarını sıradan çıxar-

maqla fərqlənmişdir. Tərtər rayonunun Seysulan kəndində gedən döyüşlərdə düşmənin dörd tankını sıradan çıxarmış, canlı qüvvəsini məhv etmiş, özü də yaralanmışdır. Şücaəti Milli Ordunun komandanlığı tərəfindən yüksək qiymətləndirilmiş, ali mükafata təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı Fərmanı ilə Quliyev Zabit Adil oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Milli Qəhrəmanımız ailəlidir, bir övladı var.

Allah ona can sağlığı və uzun ömür versin.

## ZƏFƏRNAMƏ...

**Zabit qardaşıma...**

Hələ uzaq Şərqdə-Amurda ikən,
göstərdi hamıya dəyanətini.
Necə bağışlasın xocavədli kənd
silsilə erməni xəyanətini...

Bir axşam eşitdi Vətən dardadır,
doğma Qarabağda qan var, qada var.
Mənfur erməniyə kömək naminə,
başqa ölkələrdən gəlib muzdlular.

Qayıtdı Bakıya İbad Hüseynov,
sığmadı içinə hikkəsi, hirsi.
Tələsdi təkbətək mücadiləyə,
döyüşdəcə versin düşmənin dərsin...

Qartaltək şığıdı yağı üstünə,
Dayanmaq bilmədi, durmaq bilmədi.
Pusquda gizlənmiş neçə qafili,
Məhv edənə kimi üzü gülmədi.

İbad od püskürdü: "burda yağının,
murdar yuvasını dəbərtməliyəm.
Özünü peşəkar soyan muzdlunu,
elə yerindəcə gəbərtməliyəm".

Dediyi sözünün üstündə durdu,
vuruşdu qədrini bildi hər anın.
Yanası ordenli-medallı əsgər,
fəxrinə çevrildi Azərbaycanın.

## BİZ GƏLDİ-GEDƏRİK
*(esse)*

O, yeniyetmə çağlarında davalı filmlərə daha çox meyl göstərirdi. Xüsusi olaraq "Yeddi oğul istərəm" filminə tamaşa etməkdən yorulmaz, özünü filmin qəhrəmanlarına oxşatmaq istərdi. İş elə gətirdi ki, Zabit Quliyev qoluzorlu bəylərə qarşı yox, xaricdəki düşmənlərimizə, bədxah qonşularımıza qarşı mübarizə aparmalı oldu, odlu-alovlu döyüşlərdə iştirak etdi.

Zabit Quliyev yeniyetmə çağlarında onu böyüdüb boya-başa çatdıran, hər gün nazını çəkən, qayğısına qalan ata-anasına övlad borcunu qaytarmaq niyyətində idi. Lakin iş elə gətirdi ki, o, anası qədər müqəddəs bildiyi doğma vətəni Azərbaycanın nazını çəkməyə, ona övladlıq borcunu qaytarmağa, vətənə canlı sipər olmağa tələsdi...

1993-cü ildə hərbi xidmətə başlayan Zabit Quliyev cəbhə bölgəsinə göndərilir. Döyüş yolu Ağdam, Füzuli, Ağdərə, Tərtər istiqamətindən keçir. Sərrast atəşlə düşmənin bir neçə texnikasını sıradan çıxarır. Seysulan kəndi həndəvərində düşmənin dörd tankının bizim mövqelərə tərəf irəlilədiyini görür. Bu zaman tank qoşunları qvardiya general mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş taktikası yadına düşür. O

vaxt "Pravda" qəzeti baş məqaləsində "Düşmən tanklarını əzməyi Həzi Aslanovçulardan öyrənin" yazırdı. Zabit də Həzi Aslanovun döyüş taktikasını yadına salır, tankvuran silahla ermənilərin dörd tankını sıradan çıxarıb məhv edir, özü isə yaralanır, sağ qalır.

İndi Milli Qəhrəman Zabit Quliyevi bütün Azərbaycan tanıyır, ona ehtiramını bildirir.

...Zabit Quliyev "Yeddi oğul istərəm" filmini unutmur. Orada necə də gözəl deyilib: "Biz gəl-di-gedərik, sən yaşa, dünya..."

Sən fəxr elə ki, hər iki Qarabağ müharibəsində biz döyüşə girdik, şəhid kimi, igid kimi qayıtdıq.

Başını uca tut, Vətən, biz getsək də, sən əbədi yaşayacaqsan!...





**Azərbaycanın Milli Qəhrəmanı**
**SAMİR ZİRƏDDİN OĞLU XASIYEV**
**(20.04.1973 - 17.03.1995)**

Samir Xasıyev 20 aprel 1973-cü ildə Bakı şəhərində doğulmuşdur. 1980-ci ildə Bakının 82 saylı orta məktəbin birinci sinfinə getmişdir. 1988-ci ildə ailəsi Gəncə şəhərinə köçdüyündən Samir təhsilini M.Müşfiq adına 14 saylı Beynəlmiləl orta məktəbdə davam etdirmişdir. Orta məktəbi bitirəndən sonra yenidən Bakıya qayıtmışdır. 1991-ci ildə “Bakı Soyuducuları” zavodunda əmək fəaliyyətinə başlamışdır. Elə həmin ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. 1991-ci ilin axırında Nərimanov Rayon Hərbi Komissarlığı tərəfdən həqiqi hərbi xidmətə çağırıl-

mış, Dərnəgül tikinti batalyonuna təhkim edilmişdir. Erməni təcavüzü tüğyan edəndə ön cəbhəyə göndərilməyini xahiş etmişdir. Komandirləri onun arzusunu yerinə yetirirlər. Pirəküşkül hərbi poliqonunda qısa təlim keçəndən sonra qızğın döyüşlər gedən Qarabağ bölgəsinə yollanmışdır.

Samirin döyüş yolu Ağdam rayonunun Mərzili kəndindən başlamışdır. Yağı düşmənə qarşı əzmlə vuruşmuşdur. Sonra 1993-cü ildə Füzuli, Ağdam, Ağdərə istiqamətindəki döyüşlərdə iştirak etmişdir. Düşmənin canlı qüvvəsini, zirehli texnikasını sıradan çıxarmışdır. Bir neçə dəfə yaralanmış, amma döyüş bölgəsini tərk etməmişdir. İgidliyi və şücaəti komandanlıq tərəfindən yüksək qiymətləndirilmiş, fəxri fərmanla təltif edilmişdir. Müdafiə naziri isə cəsur döyüşçünü şəxsən mükafatlandırmış, qoluna "Azərbaycan Ordusu" sözləri zərb edilmiş saat bağlamışdır.

Həmin il Tərtər istiqamətində gərgin döyüşlər gedirdi. Samir ölümünü gözünün altına alıb tabeliyində olan bir neçə əsgərlə mühasirəyə düşmüş yoldaşlarını xilas etmişdir. Həmin döyüşdə kontuziya almışdır. Bacarığı, səriştəsi, komandirlik fəaliyyəti rəhbərlik tərəfindən qiymətləndirilmiş, 10 min manat məbləğində pul mükafatı verilmişdir. Kontuziyadan özünə gələndən sonra iki aylıq zabit kurslarına göndərilmiş, təlim məşqlərində ley-

tenant rütbəsi almış, yenidən hərbi hissəyə ezam olunmuş, taqım komandiri təyin edilmişdir.

Samirin başçılıq elədiyi taqım 1994-cü ildə məlum Gəncə qiyamının yatırılmasında iştirak eləmişdir. Bu hadisədən sonra alay komandiri tərəfindən "Hərbi xidmətə görə" medalına təqdim edilmişdir.

Onun son döyüşü 1995-ci ildə Bakıda oldu. Həmin il kazarmaları "Səkkizinci" kilometrdə yerləşən Xüsusi Təyinatlı Polis Dəstəsi dövlət çevrilişinə cəhd eləmişdi. Leytenant Samir Xasıyevin başçılıq elədiyi taqım da qiyamın qarşısını almağa cəlb edilmişdi. 17.03.1995-ci il tarixdə dövlət çevrilişinin qarşısını alarkən qəhrəmancasına həlak olmuşdur.

Leytenant Samir Xasıyevin qəhrəmanlığı layiqincə qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin 04.04.1995-ci il tarixli Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Məzarı İkinci Şəhidlər Xiyabanındadır.

Qədirbilən xalqımız qəhrəmanını unutmadı, adını əbədiləşdirdi. Nərimanov rayonundakı Mədəniyyət və İstirahət Parkı Samir Xasıyevin adını daşıyır. Həmin parkda büstü ucaldılmışdır.

Allah rəhmət eləsin.

## LEYTENANT...
### *(Elegiya)*

Əzmi, iradəsi xoş nümunəydi,
nurlu təbəssümü vardı üzündə.
Anadan komandir doğulmuşdu o,
bir eyham yox idi dürüst sözündə.

Qabaqda gedərdi, vərdiş etmişdi,
axsa da sel kimi alnının təri.
Özünü heç zaman zabit saymırdı,
sayırdı ordunun fəxri əsgəri.

Samir təvazökar Vətən oğluydu,
hamıdan çox idi mükafatları.
Piyada gedərdi döyüşə hər vaxt,
minməzdi belinə köhlən atların...

Doymadı heç zaman Azərbaycandan,
mehrini yaşatdı şirin canında.
Torpağı qoruyan Milli Qəhrəman,
uyuyur Şəhidlər Xiyabanında.

# QANLA YUYULMUŞ TORPAQ

*(Elegiya)*

"Dədə Qorqud" boylarının birində deyilir ki, torpağı əkmədinsə qorumağa dəyməz, qorumadınsa əkməyə dəyməz. Bizdə deyirlər ki, Ana torpaq. Yəni ana qədər müqəddəsdir torpaq. Əvəzsiz ruzi-bərəkət təknəsi olan torpaq bizim əzəli və əbədi məskənimiz, qibləgahımızdır. Torpaqdan yaranmışıq, sonda torpağa qarışırıq.

Torpaq elə-belə daş-kəsəkdən ibarət deyil. O bizim yaşadığımız Vətəndir, ruhumuzun zirvəsidir. Həyatda nə qazanırıqsa, nəyə nail oluruqsa buna görə torpağa borcluyuq. Torpaq namus, qeyrət, mənlik, millətin, ölkənin var olmasıdır. Onsuz biz heç nəyik...

Samir Zirəddin oğlu Xasıyev torpağı sevirdi. O, torpağın müqəddəs saydığımız məziyyətlərini dərk edir, qəbul edirdi. Ona görə də torpaq və dövlət uğrunda mübarizə apardı, bu yolda özünü qurban verdi...

Öyrəndik ki, Samir Xasıyev vətən darda olanda ölkənin ərazi bütövlüyü uğrunda döyüşlərə qatılır. Füzuli, Tərtər, Ağdərə istiqamətində vuruşur, igidliyi, şücaəti yüksək qiymətləndirilir.

Tağım komandiri olan Samir Xasıyev Gəncə qiyamının yatırılmasında fəal iştirak edir. "Hərbi xidmətə görə" medalına layiq görülür.

Samir yeni bir qiyamın qarşısını almaqda iştirak edir. Dövlət çevrilişinin qarşısını alarkən qəhrəmancasına şəhid olur, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülür.

Torpağın qorunması uğrunda şəhid olan Samir Xasiyev illər ötsə də, unudulmur. "Azadlığın cənnət yolçusu" kitabı onun şücaətlərini əks etdirir. Onun əziz xatirəsi həm də qəlbimizdədir, vətən müharibəsində Qarabağı azad görən ruhu şaddır. Şair Gözəl anaya xitabən yazdığı misralar yada düşür:

Vətən eşqi canında,
Qaynayırdı qanında.
Yerim cənnət məkanda,
Narahat olma, ana.





**Azərbaycanın Milli Qəhrəmanı**
**İLQAR SƏDİ OĞLU İSMAYILOV**
**(29.03.1959 – 01.10.1992)**

Polis kapitanı İlqar İsmayılov 29 mart 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1966-1976-cı illərdə Bakının 45 saylı məktəbində orta, Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda ali təhsil almışdır. 1981-ci ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılmış, 1983-cü ildə ordudan tərxis olunmuşdur. Götür-qoy eləyəndən sonra gələcəyini DİN-də xidmətdə görmüş, Daxili Qoşunların sıralarında fəaliyyətə başlamışdır.

1991-ci ildən başlayaraq İlqar İsmayılov döyüş bölgələrinə tez-tez ezam olunurdu. Erməni təcavüzünün tüğyan edən vaxtları idi. Kapitan İlqar

İsmayılov döyüşlərdə şücaət göstərirdi. Kəşfiyyat reydlərinin birində erməni əsilli bir neçə xarici ölkə vətəndaşını əsir almışdı. Onun rəhbərlik elədiyi 128 nəfərlik bölük Qızartı yüksəkliyini işğalçılardan təmizləmişdir. Bu, igid komandirin son döyüşü olmuşdu. 1 oktyabr 1992-ci ildə qəhrəmanlıqla həlak olmuşdur.

Kapitan ailəli idi, ölümündən sonra iki övladı Vətənə yadigar qaldı.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə kapitan İsmayılov İlqar Sədi oğlu, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Qədirbilən xalqımızın qəhrəman oğlu Şəhidlər Xiyabanında dəfn edilmişdir. Hazırda Bakı şəhərinin küçələrindən biri İlqar İsmayılovun adını daşıyır, təhsil aldığı 45 saylı orta məktəbin önündə büstü ucaldılıb.

Allah rəhmət eləsin.

## KAPİTAN İSMAYILOV KÜÇƏSİ...

*(Elegiya)*

İsmayılov İlqar Sədi oğlunun,
adını daşıyan küçəni süzdüm.
Sonra qırx beş saylı orta məktəbdə,
büstünün önündə gül-çiçək düzdün.

Bakıda unutmur müəllimləri
Kapitan İlqarı, məzun İlqarı.
O vaxtdan bəllidir şagirdlərə də,
Əzmi, etibarı, fəhmi, ilqarı.

## TORPAĞA QOVUŞMAĞA TƏLƏSDİ

*(Elegiya)*

İnsan həyatı enişli-yoxuşlu, sirli-soraqlıdır. Bir dəfə işıqlı dünyaya göz açan insan öncə dünyanı dərk etmir. Necə ki, böyüyür, mükəmməl ağıl, ədəb-ərkan, elm, mərifət sahibi olur, nə üçün dünyaya gəldiyini anlamağa başlayır. Ən əsası, ata-anasını, ətrafındakı insanları sevir. Sonra üstündə gəzdiyi, min cür nemət yetirən torpağı, vətəni sevir.

Bir gün isə polis kapitanı İlqar İsmayılov fikirləşir: "Düşmən vətənimizə, halal torpaqlarımıza şərik çıxmaq istəyir. Kəndlərimizə, qəsəbələrə,

Qarabağın şəhərlərinə göz dikib, təbii sərvətlərimiz üçün yerikləyir. Düşmən məqsədinə çatmaq üçün məkrli planlar cızır, öz murdar xislətini, niyyətini gizlətmir. Biz vaxtında səfərbər olub yurdumuzun müdafiəsinə qalxmasaq sonra gec olacaq".

İlqar İsmayılov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edirdi. Erməni təcavüzü genişlənir, torpaqlar əldən gedirdi. Belə bir zamanda o döyüş bölgələrinə tez-tez ezam olunur, verilən tapşırıqları can-başla yerinə yetirirdi. Kəşfiyyat reydlərinin birində erməni əsilli bir neçə xarici ölkə vətəndaşını əsir götürmüşdü. İlqarın rəhbərlik elədiyi bölük Qızartı yüksəkliyini işğalçılardan təmizləmişdi. Cəsur komandir 1992-ci ilin oktyabrında qəhrəmancasına şəhid oldu.

İlqar İsmayılov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Şəhidlər Xiyabanında ehtiramla dəfn edildi.

Şəhidlər və şəhidliyin mahiyyəti, heç bir göstəriş, əmr gözləmədən vətən uğrunda şəhid olanlar barədə çox düşünürəm, hiss və duyğularımı, düşüncələrimi qələm və kağıza köçürürəm, qəm yükünü azaldıram. Düşünürəm ki, şəhidlik vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir.

Bəzən ətrafımızdakı insanlara fikrimizi çatdırmaq üçün bir neçə kəlmə, bir-iki cümlə işlətməyi-

miz kifayət edir. Sözün canını deməklə, işin mahiyyətini çatdırmaq olur. Ancaq vətən üçün canından keçənlər haqqında danışarkən fikrimizi çatdırmağa bir-iki cümlə bəs etmir. Onların vətənpərvərliyini, şücaətini, xalqı üçün etdiklərini sizə çatdırmaq üçün kitablar yazmaq, film çəkmək, tamaşa göstərmək lazımdır.

İlqar İsmayılov belə hörmətə, ehtirama, qəhrəmanlığı haqqında söz açmağa layiqdir.





**Azərbaycanın Milli Qəhrəmanı**
**SƏFA FƏTULLA OĞLU AXUNDOV**
**(19.06.1958 - 28.01.1992)**

Səfa Axundov 19 iyun 1958-ci ildə Masallı rayonunda anadan olmuşdur. İlk təhsilini Saatlı rayonunda almış, sonra ailəsi Cəlilabad şəhərinə köçdüyündən təhsilini burada davam etdirmişdir.

Səfa uşaqlıq vaxtlarından təyyarəçi olmaq arzusunda idi. Orta məktəbi bitirib Bakı aeroportunda işə düzəlmişdi. Bir müddət burda işləyəndən sonra 1974-cü ildə Orenburq Mülki Aviasiya Məktəbinə daxil olmuşdur. 1979-cu ildə ali məktəbi bitirib vətənə qayıtmışdır. Elə həmin il Yevlax aeroportunda pilot vəzifəsinə təyin edilmişdir. Sonra xidməti ilə bağlı Latviya Respublikasının Riqa şəhərinə

köçmüşdür. 1988-ci ilə qədər Riqada çalışan Səfa Axundov Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının münaqişəyə, münaqişənin müharibəyə çevrilməyinə biganə qalmayıb Vətənə qayıtmışdır. Zabrat aeroportunda işə düzəlmiş, Mİ-8 helikopterinin ikinci pilotu vəzifəsinə təyin edilmişdir.

Həmin vaxtlarda cəbhədən ağır xəbərlər gəlirdi. Mülki helikopterlər və pilotlar səfərbər olundular. Səfa Axundov dəfələrlə döyüş bölgələrinə uçuş etmişdir. Helikopteri Silahlı Qüvvələrin sifarişi ilə silah-sursat, canlı qüvvə daşıyırdı. Təcrübəli pilot idi, ən çətin şəraitdə eniş eləməyi bacarırdı.

1992-ci ilin 28 yanvarında Şuşaya iki uğurlu uçuş eləmişdir. Şəhər artıq erməni yaraqlıların mühasirəsində idi. Həmin gün yenidən Şuşaya uçuş edərkən Xankəndi istiqamətindən atılan raket helikopteri parçalamış, Mİ-8-in göyərtəsində olan üç nəfərlik şəxsi heyət və 47 nəfər sərnişin faciəli surətdə həlak olmuşdur.

Səfa Axundov ailəli idi, Vətənə iki övladı yadigar qaldı.

Azərbaycan Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Axundov Səfa Fətulla oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Xalqımızın qəhrəman oğlu Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Səfa Axun-

dovun adı əbədiləşdirilmiş, Cəlilabad şəhərinin mərkəzində büstü qoyulmuşdur.

Allah rəhmət eləsin.

## GÖYLƏR ŞAHİNİ...
*(Elegiya)*

Məqsədi azad göylərdə,
süzmək idi...
Əngin səmalarda,
buludların üstündə üzmək idi.
Sərnişin daşımaq,
Qərib-qərib ölkələrlə
dil tapmaq, danışmaq.

Müharibə aman vermədi:
sərnişin təyyarəsini
hərbi helikopter əvəzlədi.
Qeyrətli Vətən övladını
Şuşanın göyləri əzizlədi,
Qarabağın qızaran üfüqləri.

"Torpaq uğrunda vuruşmaq haqdır,
ölmək ondan savab" – düşündü.
Nə fikir elədi, nə üşüdü.
Bir gün də canını fəda etdi

əqidə uğrunda, amal yolunda.
İki övladı yadigar qaldı,
məzarının keşiyində,
sağında və solunda.

## SƏMA ŞAHİNİ
*(Elegiya)*

Səfa Axundov barədə bir yarpaq söz yazarkən səma şahinlərini xatırladım. O, Masallıda anadan olarkən ağlına belə gəlmirdi ki, səma şahini tək göyün üzündə süzəcək, xain və hiyləgər düşmənin raket atəşi nəticəsindən idarə etdiyi Mİ-8 helikopter Xankəndi istiqamətində göydə parçalanıb yerə düşəcək, üç nəfər pilot heyəti ilə yanaşı, 47 nəfər günahsız sərnişin, dinc sakin erməni terrorunun qurbanı olacaq.

Orenburqda Mülki Aviasiya Məktəbini bitirmişdi. Vətənin Qarabağ bölgəsi təcavüzə məruz qalanda Zabrat aeroportunda ikinci pilot vəzifəsinə təyin edilmişdi. O, dəfələrlə cəbhə bölgələrinə uçuşlar etmişdi. Səfa Axundov öz həyatını təhlükəyə ataraq Silahlı Qüvvələrimiz üçün canlı qüvvə, silah-sursat, ərzaq daşıyırdı. Ən çətin məqamlarda belə eniş etməyi bacarırdı və bu enişdən asılı olan çox şey vardı.

Təklənmiş və yağı tapdağına düşmüş, nəyi vardısa talanmış, səsi eşidilməyən vətən öz qeyrətli övladlarından imdad gözləyirdi. Fəqət, yurdun yaralarına məlhəm qoyana, düşməni susdurmağı bacarana ehtiyac çox idi.

1992-ci ilin 28 yanvarı. Qədim Şuşa şəhəri erməni silahlılarının mühasirəsində idi. Səfa Axundov iki dəfə tapşırıq əsasında uçuş elədi. Bu düşmənin xoşuna gəlmədi. Onlar helikopteri qeyd elədiyimiz kimi müasir silahla vurub yerə saldılar. Səfa Axundov qəhrəmancasına şəhid oldu. Onu Şəhidlər Xiyabanında ehtiramla dəfn etdilər, Cəlilabad şəhərində büstü qoyuldu.

Şəhidlik Vətənə məhəbbətin zirvəsi sayılır. Şəhidlik adi ölüm deyil, verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Vətən yolunda şəhidlik əsl qeyrət, ləyaqət, hünər və şərəf zirvəsidir. Bu zirvə hər kəsə nəsib olmur. Səfa hər dəfə səmaya uçarkən Qarabağı zirvələrdən seyr etmişdi. İkinci dəfə isə... o, düşmənin xaincəsinə atəşi nəticəsində yerə dəyib param-parça olsa da, Allah Səfanı şəhidlik zirvəsinə ucaltdı...



**Azərbaycanın Milli Qəhrəmanı**
**KOROĞLU İSMAYIL OĞLU RƏHİMOV**
**(31.11.1953 - 03.07.1992)**

Leytenant Koroğlu Rəhimov 31 oktyabr 1953-cü il tarixdə Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur. Atası İsmayıl Rəhimov müəllim, anası Surə xanım evdar qadın idi. Koroğlu 1960-cı ildə Yaqublu kənd yeddiillik məktəbinin birinci sinfinə getmişdir. Ailəsi əslən Qərbi Azərbaycanın Zəngibasar mahalının Sarıcalar kəndindən idi, ermənilərin 1949-1953-cü illərdəki etnik təmizləmə siyasətinin qurbanlarından idi. Altmışıncı illərdə valideynləri vəziyyətin nisbətən sabitləşdiyini görüb 1962-ci ildə doğma ata-baba yurdlarına köçmüşdülər.

Koroğlu orta təhsilini Sarıcalar kəndində müvəffəqiyyətlə tamamlamış, 1970-ci ildə Bakıya gəlmiş, Azərbaycan Neft və Kimya İnstitutunun Avtomatika fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. Əmək fəaliyyətinə Bakı Məişət Kondisionerləri zavodunda başlamışdır. 1972-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 1974-cü ildə Almaniya Demokratik Respublikasında hərbi xidmətini başa vurmuş, Bakıya qayıtmışdır. İşləyə-işləyə yarımçıq qalmış ali təhsilini tamamlamışdır.

Uşaqlıqda nadinc olan Koroğlu əslində çox təvazökar, vətənpərvər, ailəcanlı bir insan idi. 1979-cu ildə əmisi qızı Aybəniz xanımla ailə qurmuş, üç övlad atası olmuşdur. Xoşbəxt yaşaya bilərdi, amma erməni təcavüzü onlara xoşbəxt yaşamağa imkan vermədi.

1988-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi surətdə qovulması, 1990-cı ilin Qanlı Yanvarı, 1992-ci il fevralın 26-da baş verən Xocalı soyqırımı Koroğluya böyük təsir elədi, 17 mart 1992-ci ildə könüllü olaraq yeni yaranan Milli Ordu sıralarına daxil olmuşdur. Sovet Ordusundakı təcrübəsi nəzərə alınıb Koroğlu Rəhimov hərbi hissənin motoatıcı bölüyünün komandiri təyin olunmuşdu. Təlim keçməyə vaxt yox idi. Ermənilərin Azərbaycana hücumu dayanmırdı.

Koroğlunun motoatıcı bölüyü dərhal döyüşə atılmış, qısa vaxtda uğur qazanmışdı. Artıq 13 iyun 1992-ci ildə Goranboyun Buzluq, Çartaz, Erkəc kəndləri işğalçılardan azad edilmişdi. Döyüşlərin birində bölük on beş erməni yaraqlısını cəhənnəmə vasil eləmiş, dördünü əsir götürmüş, xeyli silah-sursat ələ keçirtmişdi. Bölüyün döyüşçüləri uğurdan ruhlanaraq ertəsi gün, iyunun 14-də hücuma keçmiş, Mənəşli kəndini də yaraqlılardan təmizləmişdilər. Sayca üstün olan ermənilər xeyli itki verib geri çəkilmişdilər. Bölük iyunun 15-i daha vacib yaşayış məntəqələrini - Başkənd, Madagiz və Gülüstan kəndlərini bir-birinin ardınca azad eləmişdi.

Amma ermənilər yenidən güc toplayıb hücuma keçmişdilər. 21 iyun 1992-ci il tarixdə Madagiz kəndi uğrunda yenidən qanlı döyüşlər başlamışdı. Həmin gün Koroğlu ratsiya önündən çəkilmirdi. Xəbər aldı ki, tabor komandiri Yaşar Qarayev bir neçə döyüşçüsü ilə mühasirəyə düşüblər. Koroğlu bölüyü hücuma qaldırmış, dostunun köməyinə yetişmişdi. Əməliyyat uğurla nəticələnmiş, Madagiz ikinci dəfə erməni işğalından azad edilmişdi.

3 iyul 1992-ci ildə yenidən hücum əmri alan bölük Ağdərə istiqamətində mövqe tutmuşdu. Qanlı döyüşlər fasiləsiz davam edirdi. Bölük Ağdərə yaxınlığındakı Üçüncü sovxoz deyilən ərazini düş-

məndən təmizləməli idi. Bu, Koroğlunun son döyüşü oldu. Aldığı qəlpə yarasından həlak oldu. Onun ölümü hamını sarsıtdı. Koroğlu gülləbatmaz kimi tanınırdı, onlarla döyüşdən sağ-salamat çıxmışdı.

Koroğlu Rəhimovun nəşi Bakıya gətirildi, Şəhidlər Xiyabanında torpağa tapşırıldı. Ölümündən iki il sonra, 16 sentyabr 1994-cü ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə leytenant Koroğlu İsmayıl oğlu Rəhimov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Qədirbilən xalqımız qəhrəman oğlunun şücaətini layiqincə qiymətləndirdi. Haqqında filmlər çəkildi, məqalələr dərc edildi, kitablar bağlandı, şəninə şeirlər yazıldı. Bakıda və Oğuzda adına küçələr verildi. Nərimanov rayonunda büstü qoyuldu. Oğuz rayonu, Xaçmaz kəndində 3 saylı körpələr evinə Koroğlu Rəhimovun adı verildi.

Özündən sonra Rəşad, Samir, Ülviyyə adında üç övladı yadigar qalmışdır. Hazırda Koroğlunun beş nəvəsi onun soyadını daşıyır.

Allah rəhmət eləsin.

## KOROĞLU DASTANI...
*(Elegiya)*

Qədim Oğuz elində -
Goranboyda ömrü dastana döndü.
Uşaqların dilində,
çiçəklərin telində
yamacların gülündə,
hər gün tezdən oxundu.
Erməni xislətinə
bələd idi Koroğlu.
Dammışdı ürəyinə,
yenə yolundan azıb,
Yenə gözü kor olub.

Goranboydan başladı,
düşmənə qan uddurdu.
Neçə obanı, dağı,
Çartaz, Erkəc, Buzluğu
gecə-gündüz güdürdü...
Motoatıcı kimi
bölük komandiriydi.
Ancaq özü sıravi
əsgərlərdən biriydi.

Qəhrəmanlıq göstərdi
hər döyüşdə həmlədə.

Neçə dostu-qardaşı
Xilas elədi həm də.
Mühasirəni yazdı,
mübahisəni kəsdi.
Bu yurdun hər qarışı
uğrunda tir-tir əsdi.

Adı əzbər Koroğlu,
təzə dastan yaratdı.
ölümüylə yağının
sinəsinə dağ basdı.
Yüksəldi ucalığa,
Koroğlu zirvəsinə.
Qoç dəlilər səs verdi,
hər əmrinə, səsinə.

İndi igid Koroğlu
film qəhrəmanıdır,
kitab qəhrəmanıdır.
Onu Bakı tanıdır,
Onu Oğuz tanıdır.
Məzarının başında
bütün xalq həyanıdır!

## ADINA LAYİQ QƏHRƏMAN
*(Elegiya)*

Xalqımızın iftixarı, bütün türk dünyasının fəxri, haqq-ədalət uğrunda mübariz, mərd və cəsur sərkərdə Koroğlu ən çox sevdiyim qəhrəmanlardandır. Ancaq sən demə, onun adını daşıyaraq qəhrəmanlığı səviyyəsinə qalxan adaşı da olacaqmış. Bu leytenant Koroğlu Rəhimovu deyirəm. Oğuz elində qəhrəmanlıq üçün böyümüş və hünər sahibi olmuş Koroğlu kimi yüzlərlə, minlərlə el oğulları Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatını belə qurban verən, bu yolda gücünü əsirgəməyən şəhid qəhrəmanlardan biridir.

Koroğlu Rəhimovun adı bizə doğmadır. Kütləvi informasiya vasitələri onun qəhrəmanlığı barədə bizə çox məlumat verib. O, xalqın əsrlərin sınağından çıxmış milli xüsusiyyətlərinin mahir daşıyıcısı olub, onların igidlik nümunələrində yaşayır, xalqın, millətin köklü yaddaşına əbədi həkk olub. Atasının, anasının övlad acısı tükənməyib. Koroğlu ilə nə qədər qürur duysalar da azdır. Onun kimi mərd, qorxmaz, vətənpərvər, cəsur övlada sahib olduqları üçün fəxr etməyə sonsuzadək haqları var...

Koroğlunun qəhrəmanlığı nə kitablara sığar, nə də dastana! Ağdərə həndəvərində Koroğlu sonuncu döyüşünə atılır. Hamı onu gülləbatmaz, yağıya

bac verməyən kimi tanıyırdı, neçə-neçə döyüşdən sağ çıxmış, güllə və mərmilərdən yan ötmüşdü. Allah onu döyüşdən-döyüşə, qələbədən-qələbəyə aparırdı. Lakin bir dəfə məkrli düşmənin atdığı güllələrdən, mərmidən yayına bilmir. Canından çox sevdiyi torpağa qovuşmaqçun torpağa əyilir. Torpağa, vətənə olan borcunu bir oğul kimi şərəflə yerinə yetirir.

Koroğlu Rəhimovun həyatı və cəbhə gündəliyi bitib-tükənməyən bir dastandır. Bu dastan min illərdir nənələrimizin həsrət qoxuyan yanğılı bayatı, türkü və ağılarındakı hekayələrin davamıdır.

Müqəddəs torpaqlarımız uğrunda, Azərbaycanın bütövlüyü, suveren dövlətimizin toxunulmazlığı uğrunda can qoyan, şəhid olan bütün övladlarımız tarix durduqca yaşayacaq!





**Azərbaycanın Milli Qəhrəmanı**
**ƏLİYAR YUSİF OĞLU ƏLİYEV**
**(14.12.1957 - 03.10.1992)**

Əliyar Əliyev 14 dekabr 1957-ci ildə Qubadlı rayonunu Qəzyan kəndində anadan olmuşdur. Doğma kəndində natamam orta məktəbi, Dondarlı kəndində isə orta məktəbi bitirmişdir. 1975-ci ildə Azərbaycan Bədən Tərbiyəsi İnstitutuna daxil olmuş, 1979-cu ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirmiş, doğma rayonuna qayıtmışdı. Bir müddət Qubadlının Dondarlı kəndində idman müəllimi işləmiş, sonra həqiqi hərbi xidmətə çağırılmışdır.

Əsgərlikdən sonra Saransk Dövlət Universitetində müəllimlik fəaliyyəti ilə iki il məşğul olmuş, atasının ölümü ilə əlaqədar həmişəlik Vətənə qayıt-

mışdır. Bir müddət Dondarlı kənd orta məktəbində idman müəllimi, sonra "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətinin rayon şöbəsində məşqçi vəzifəsində işləmişdir. 1985-ci ildə Bədən Tərbiyəsi və İdman Cəmiyyəti rayon Şurasının sədri vəzifəsinə seçilmişdir.

Əliyar mütəmadi idmanla məşğul olmuşdur. Sevimli idman növü yunan-Roma güləşi idi. Bu sahədə kifayət qədər ciddi uğurlar əldə eləmişdi. Dəfələrlə xarici ölkələrdə keçirilən turnirlərdən beynəlxalq yarışların qalibi kimi Vətənə qayıtmışdı. Könüllü idman cəmiyyətində çalışanda adlı-sanlı idmançılar yetişdirmişdi. Yetirmələrinin səkkizi Azərbaycan və SSRİ çempionu olmuşdu. On nəfər İdman Ustası yetişdirmişdi. Yetirmələrindən Heydər Məmmədəliyev dünya çempionu olmuş, 2004-cü il Yay Olimpiya Oyunlarında gümüş medal qazanmışdır.

Əliyar bir müddət pəhləvan kimi fəaliyyət göstərmişdir. Müxtəlif nömrələrlə, üzərindən maşın keçirmək, başında kərpic sındırmaq, hərəkətdə olan maşını saxlamaq kimi nömrələrlə nəinki Qubadlı ərazisində, hətta başqa rayonlarda da çıxış edirdi.

1988-ci ilin fevralında erməni fitnə-fəsadı qızışdı. Ermənistandan azərbaycanlıların deportasiyası başladı. Sisiyandan, Qafandan, Gorusdan qovulan

azərbaycanlıların bir hissəsini Qubadlı rayonu qəbul eləmişdi. Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Qubadlının strateji əhəmiyyəti vardı. Təcavüzkarlar bu ərazilərdə terror-təxribat törətməyə çalışırdılar.

Əliyar Əliyevin rayonda böyük nüfuzu vardı. Hamı onu xalq hərəkatının başçısı kimi tanıyırdı. O, könüllülərdən ibarət bir dəstə yaratmışdı. Təşkil etdiyi dəstə camaat arasında "Pəhləvanlar taboru" kimi tanınırdı. Dəstənin özəyini idmançılar, başçılıq elədiyi Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyətinin üzvləri təşkil edirdi.

Qarabağ müharibəsinin sərhədləri get-gedə genişlənirdi. Əliyar Əliyev kənarda qalmaq fikrində deyildi, həmişə hadisələrin qaynar nöqtəsinə can atırdı. Yeni yaranan Azərbaycan Ordusunun sıralarına qoşulmuşdu. Əvvəl yaratdığı taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin təchizat üzrə müavini, daha sonra komandiri təyin edilmişdi. Qısa vaxtda təkcə igidliyi deyil, həm də hərbi işin təşkilatçısı kimi ad çıxarmışdı.

Günü səngərlərdə keçirdi. Düşmənin rayon ərazisinə girməyinə imkan vermirdi. Qanlı döyüşlər bitib-tükənmirdi. Silah-sursat əldə eləmək üçün gecələr düşmən mövqelərinə basqın edirdilər. Bu qeyri-bərabər döyüşdə ölən və yaralananlar olurdu, amma heç kim geri çəkilmək fikrində deyildi.

Azərbaycanlıların qanına susamış vəhşi ermənilərin Xocalıda törətdiyi soyqırımdan (1992-ci il 25-26 fevral) bir neçə gün keçməmişdi ki, Əliyar Əliyevin başçılıq etdiyi tabor qisas əməliyyatı keçirmişdi. Bakıdan əmr gözləmədən taborun Gorus istiqamətində yerləşdirilmiş topları dəqiq atəşlə şəhərin altını üstünə çevirmişdi. İtkilər haqqında hətta Rusiya və Ermənistan KİV-ləri də məlumat yaymışdı. Onlar bu hücum zamanı 336 nəfərin öldürüldüyünü yazmışdılar. Bununla bağlı Ermənistan üç günlük matəm elan eləmişdi. İrəvanda keçən matəm mitinqlərində Əliyar Əliyevə və onun döyüşçülərinə ölüm hökmü çıxarılmışdı.

Taboru sıradan çıxarmaq üçün "Qara bəbir" ləqəbli Suriya ermənisi Karlenin başçılıq etdiyi diversiya qrupu göndərilmişdi. Xaricdə xüsusi hazırlıq keçmiş 50 nəfərlik qrup Laləzar körpüsünü partlatmaq, Qubadlı şəhəri ilə sərhəd kəndlərinin əlaqəsini kəsmək, strateji yüksəklikləri ələ keçirmək əmri almışdı. 16 aprel 1992-ci il tarixdə Karlenin dəstəsi hücuma keçdi. Əldə etdiyi kəşfiyyat məlumatlarından nəticə çıxaran tabor komandiri Əliyar Əliyev pusqu qurmuşdu, Karlenin dəstəsini "kisəyə" salmışdı. Mühasirəyə düşmüş düşmənə aman verilməmiş, dəstəbaşıları daxil olmaqla 11 düşmən terrorçusu məhv edilmişdi. Döyüş başa çatandan

sonra düşmən meyitlərini erməni əsirliyində olan azərbaycanlılara dəyişdirdi.

Tabor rayonun keşiyində əzmlə dururdu. 24 iyun 1992-ci ildə Əliyar Əliyevin döyüşçüləri Qubadlı şəhərinin mərkəzini dəfələrlə bombalayan üç helikopteri vurub salmış, əhali arasında başlayan çaxnaşmanın qabağını almışdılar.

Düşmənin artan hücumlarının qabağını almaq üçün Azərbaycan Silahlı Qüvvələri 1992-ci il avqustda "Şurnuxu" əməliyyatını həyata keçirməyi qərarlaşdırdılar. Əliyar Əliyevin taboru da ön sırada mövqe tutmuşdu. Qubadlıya daxil olan yollar nəzarətə götürülmüşdü. Azərbaycanlıların hərbi qüvvəsi bir bölükdən, bir də Əliyar Əliyevin 40-45 nəfərlik taborundan ibarət idi. Qısa döyüşdən sonra 100 nəfərdən çox qüvvə toplamış ermənilərin qarşısı alınmışdı. Əməliyyat bir gün çəkmişdi, düşmən səksəndən çox canlı qüvvəsini, bir neçə texnikasını itirmişdi. Əliyar Əliyevin döyüşçüləri Gorusun Şurnuxu kəndindəki düşmən postunu darmadağın etmiş, ruslardan və ermənilərdən ibarət 20 silahlını əsir almışdılar, Qafan-Gorus yolunu nəzarətə götürmüşdülər. Bu döyüşdə Azərbaycan silahlı qüvvələrinin itkiləri cüzi idi, bir neçə nəfər yüngül yaralanmışdı.

Payızda düşmənin Başarat, Susuzdağ, Suarası mövqelərini ələ keçirən tabor 1992-ci il sentyabrın

30-u Laçın rayonu istiqamətində döyüş əməliyyatları keçirmişdi. Əliyar Əliyev 40 döyüşçüsü ilə Laçının işğal altında olan 40 kəndini 4 gün ərzində ermənilərdən təmizləmişdi.

Tabor Laçın şəhərinin iki kilometrliyində mövqe tutmuşdu. Strateji "Tikanlı zəmi" yüksəkliyini əldə saxlamağa çalışırdı. Düşmənin hücumu gözlənilirdi. Tabor komandiri Əliyar Əliyev sürücüsü Əlisadat Ağayevin idarə etdiyi "UAZ" markalı maşınında postlar arasında hərəkət edəndə düşmənin diversiya qrupunun pusqusuna düşmüşdü. Komandirlə sürücü kürək-kürəyə verib son patrona qədər vuruşmuşdular. Bu, igid komandirin son döyüşü olmuşdu. Əliyar Əliyev 3 oktyabr 1992-ci ildə qəhrəmanlıqla həlak olmuşdu.

Həmin döyüşlərin şahidi olan, taborun tank əleyhinə bölmənin komandiri, leytenant Füzuli Həsənov deyir ki, Əliyar Əliyevin ölümü bütün Qubadlı rayonunu yasa batırmışdı. İgid, təvazökar komandir hamının sevimlisi idi, adı dillərdə gəzirdi. Rayon camaatı qırx gün təziyə saxlamışdı.

Əliyar Əliyev Qubadlının Qəzyan kəndində dəfn edilmişdir. Ölümünün qırxıncı günü şəhərin mərkəzində qəhrəmanın şərəfinə xatirə abidəsi ucaldılmışdır.

Azərbaycan Prezidentinin 10 noyabr 1992-ci il tarixli 301 saylı Fərmanı ilə Əliyar Yusif oğlu Əliyev

ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Qədirbilən xalqımız qəhrəmanını unutmadı. Hazırda Nərimanov rayonundakı küçələrdən biri Əliyar Əliyevin adını daşıyır. Həmin ərazidə qəhrəmanın büstü ucaldılıb, yaşadığı evin divarına xatirə lövhəsi bərkidilib. Masazır qəsəbəsində adına məktəb, Sumqayıt şəhərində və Binəqədi qəsəbəsində adına bulaq kompleksi açılmışdır. 2016-cı ildə rejissor Nizami Abbas Əliyar Əliyev haqqında "Pəhləvan komandir" sənədli filmini çəkmişdir.

Xalqımızın qəhrəman oğlu həm də şair idi. Onun gənclərimizə örnək olan belə bir şeiri vardı:

Dostumuzu düşmən sandıq,
Düşməni dost sana-sana.
Azadlıqdan çox danışdıq,
Fəqət qaldıq yana-yana.

***Allah rəhmət eləsin.***

## DÜŞMƏNLƏRİN QƏNİMİ...

*(Elegiya)*

Şair təbiətliydi,
Söz nuruydu qəlbinin.
Yaxşı ləqəbi vardı –
“Erməninin qənimi”.

İdman müəllimiydi,
Qüdrəti, gücü vardı.
Hörmət sahibi idi,
fitrət yiyəsi idi,
ürəyində bahardı.

Doğulduğu Qubadlı –
gözlərinin işığı.
İbadət məskəniydi –
Azərbaycan torpağı.

Suriyalı Karleni
Əsir götürən zaman.
Dil tökdü “Qara bəbir”,
ancaq olmadı aman.

Qafan-Gorus yolunda
məhv etdi dığaları.
Vahiməsi titrətdi
Laçındakı dağları.

Həlak olan zamanda
el-obanı ağlatdı.
Mərdanə ölümüylə
sinələri dağlatdı.

Ona Allah yar idi,
ona Əli yar idi.
Hamının kisəsindən
gedən Əliyar idi.

## TUNC BÜSTƏ DÖNMÜŞ QƏHRƏMAN
*(Elegiya)*

Tarixən vətənin azadlığı, işğala məruz qalmamağı üçün vətən uğrunda ölməyə və öldürməyə hazır olan mərd oğullarla fəxr etmişik. Vətənin hər qarış torpağına damlayan şəhid qanı vətənin müqəddəs olmasından xəbər verir. Vətən adlı qibləgahı olan millətin övladları özündən sonrakı nəsillərə örnək olur, vətəni, torpağı, milləti bütün insanlara sevdirməyi öyrədir.

Vətənin harayına səs verən, torpaqların bütövlüyü uğrunda canını və qanını əsirgəməyən qəhrəmanların döyüş yolu bir əfsanə, bir dastan, canlı bir tarixdir. Tabor komandiri, cəsur kəşfiyyatçı, düşməni məhv edən atıcı Əliyar Əliyevin döyüş xidmətləri misilsizdir. “Qara bəbir” adlı Suriya ermənisinin diversiya qrupunu mühasirəyə salıb məhv

etmiş, Qubadlıda, Qafan-Gorus istiqamətindəki döyüşlərdə və kəşfiyyat əməliyyatlarında əsl fədakarlıq, şücaət, qəhrəmanlıq göstərmişdi. Düşmən bildi ki, bu yurdun sahibi var, onların qəsbkarlığı uzun sürməz.

Əliyar Əliyevi Qubadlının torpağından, dağların əzəmətindən, ata-ana öyüdündən güc almışdı, cəsarət toplamışdı. Son döyüşdən qabaq evə zəng vurub danışmış, "haqqınızı halal edin, ağır tapşırığım var, onu yerinə yetirməliyəm. Vaxt olan kimi zəng edəcəyəm. İnşallah haqq-ədalət bizimlə olacaq..."

Əliyar Əliyev Bədən Tərbiyəsi İnstitutunu bitirmişdi. Kənddə müəllimlik etmişdi. İdman Cəmiyyətinin rayon şurasının sədri seçilmişdi. O, güləş üzrə Azərbaycanın və SSRİ-nin çempionu olmuşdu. Cəsur pəhləvan çoxlu idmançı yetirmişdi. Cəbhədə göstərdiyi qəhrəmanlığına bir səbəb də Əliyarın döyüşkənliyə həmişə hazır olması, sağlam bədəni və sağlam ruhu, bir də Vətən sevgisi, müsbət əxlaqı oldu.

Bəli, Əliyar Əliyev sanki şəhid olmaq üçün dünyaya gəlmişdi. O, şüurlu şəkildə ölümə doğru gedirdi. Qismətinə şəhidlik düşdü, bir də Azərbaycanın Milli Qəhrəmanı adı.

Əliyar Əliyevin adı kifayət qədər əbədiləşib. Qəhrəmanın tunc büstü hər səhər onun yanından ötənləri salamlayır.



**Azərbaycanın Milli Qəhrəmanı**
**RİZVAN RƏHMAN OĞLU TEYMUROV**
**(16.04.1967 - 09.12.1991)**

Rizvan Rəhman oğlu Teymurov 16 aprel 1967-ci ildə Şuşa rayonunun Quşçular kəndində ziyalı ailəsində anadan olmuşdur. 1984-cü ildə Quşçular kəndindəki orta məktəbi bitirmişdir. 1985-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Omsk şəhərində keçən iki illik hərbi xidməti bitəndən sonra Vətənə qayıtmışdır. Bir neçə ay dincələndən sonra yenidən Rusiyaya qayıtmış, 1987-ci ildən Arxangelsk vilayətində xidmət eləmişdir. Qeyrətli Vətən oğlu 1990-cı ildə geri dönmüş, Şuşa rayon Daxili İşlər Şöbəsinin nəzdində yaradılan polis alayında xidmətə başlamışdır.

Ermənilərin Azərbaycana torpaq iddiaları iddia kimi qalmamışdı, tam miqyaslı müharibəyə çevrilmişdi. Rizvan Teymurov elə ilk gündən döyüşlərə atılmışdı. Xidmət elədiyi polis alayı cəsur, qeyrətli Azərbaycan oğullarından təşkil olunmuşdu. Onlar vəzifə borclarını yerinə yetirərək Muxtar Vilayətin Qaradağlı, Sırxavənd, Umudlu, Meşəli, Cəmilli kəndlərinin ətrafında onlarla erməni yaraqlısını zərərsizləşdirmişdi.

Rizvan Qarabağı qarış-qarış gəzmiş, ermənilərlə üz-üzə gəlməkdən qorxmamış, düşməni dəfələrlə geri oturtmuşdu. 1991-ci ilin 9 dekabrında Kərkicahan uğrunda gedən qanlı döyüşlərdə cəsur polis işçisi Rizvan Teymurov qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Prezidentinin 08.10.1992-ci il tarixli, 264 saylı Sərəncamı ilə Teymurov Rizvan Rəhman oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Qədirbilən xalqımız qəhrəman oğlunun şücaətini layiqincə qiymətləndirmiş, Bakının Nizami rayonun ərazisində adına küçə, Şuşa rayonunun Quşçular kəndində adına orta məktəb verilmişdir.

Bürünc büstü hazırlanmaqdadır.

Allah rəhmət eləsin.

## CƏNNƏT QUŞU...
*(Elegiya)*

Dağdan arana endi,
arandan dağa qalxdı.
Kərkicahan gedəndə,
başında şimşək çaxdı.

Polis əməkdaşıydı,
Sayıqlığı var idi.
Hamıdan fərqlənirdi,
Ayıqlığı var idi.

Şuşanın kəndlərində,
sərin sudan içirdi.
Harda yağı görürdü,
tapdalayıb keçirdi.

Nisgili və yoxluğu –
Ürəklərdə tikandı.
Adı Rizvan olanın,
yeri cənnət-məkandı.

## VƏTƏNƏ MƏHƏBBƏTİN ZİRVƏSİ
*(Elegiya)*

Bu yazıda Rizvan Teymurovu - Şuşaya qarış-qarış bələd olan, torpağını, daşını, suyunu, insanlarını çox sevən, Quşçular kəndində təvəllüd tapsa da, Kərkicahan uğrunda ölüm-dirim savaşında şəhid edilən bir igid polis qardaşımızı xatırlamaq istədik. O, Pənahəli xan Cavanşirin Şuşanı bina etməsindən, onun mərdliyindən, yurdsevərliyindən, heç vaxt yağılara baş əyməməyindən çox eşitmişdi. İndi isə, bədxah düşmənin yurda qənim kəsilməsi Rizvanı rahat buraxmır, gecə-gündüz Şuşanın taleyi barədə düşünürdü. Ulu yurdu tərk edib, kənara çəkilməyə qeyrəti yol vermirdi. Əsrlər boyu türklərə baş əyən ermənilər bizə qənim kəsilir, çoxdan düşdükləri planı işə salır, soydaşlarımızı yurd-yuvasından qovub didərgin salır, torpağı müdafiə edənləri öldürür, Qarabağın sərvətini talayıb daşıyırlar.

Rizvan çox düşüncəli vətəndaş idi. O, bilirdi ki, vətən pak olduğu üçün uca zirvələrdə qərar tutub, gərək ona yad əllər toxunmasın, başının üstünü qara buludlar almasın, yağılara əsir olmasın. Rizvan bilirdi ki, biz milli-mənəvi dəyərlərimizi, dövlətçiliyimizi dünya bəyənən bir xalq kimi, dövlət kimi formalaşmışıq. Zaman dəyişsə də, illər ötsə də heç kim Vətən sevgimizi nə azalda, nə də bun-

dan məhrum edə bilər. Bizim qanımız, ruhumuz vətən eşqindən, sevgisindən yoğrulub. Bizim haqq savaşımızda inamımızı, gümanımızı, ümidimizi, cəsarətimizi artıran, bizə Qələbə qazandıran rəşadətli əsgərlərimizin Vətən sevgisi idi.

Rizvan Teymurov ömrünün parlaq çağında işıqlı dünyadan getdi. İndi onun arzuları, əməlləri yaşayır. Haqq yolunda olduğumuzu dünya gördü. Biz tarixin son yüz ilinə Qələbə ilə daxil olduq. Hələ çox yol gedəcəyik...





**Azərbaycanın Milli Qəhrəmanı**
**ŞAHLAR ƏVƏZ OĞLU ŞÜKÜROV**
**(17.05.1952 - 08.05.1990)**

Şahlar Şükürov 17 may 1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1972-ci ildə ali təhsilini başa vurub həqiqi hərbi xidmətə çağırılmışdır. Ordudan tərxis edildikdən sonra Ucar rayonu Daxili İşlər Şöbəsində çalışmağa başlamışdır. Bir müddət işləyəndən sonra rəhbərlik tərəfindən Rostov Ali Polis Akademiyasına təhsilini artırmağa göndərilmiş, 1986-cı ildə təhsilini tamamlamış, mayor rütbəsi almışdır. Sonra Şahlar

Şükürov Zərdab rayonu Daxili İşlər Şöbəsində rəis müavini vəzifəsində çalışmışdır.

Şahlar Şükürov ermənilərin Azərbaycan ərazilərində təxribatları başlayandan sonra tez-tez döyüş bölgələrinə ezam edilirdi. Vəzifə borcunu yerinə yetirərək torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərə atılmışdır. 8 may 1990-cı ildə Azərbaycana məxsus maşın karvanı Tərtər-Kəlbəcər yolu ilə hərəkət edərkən erməni yaraqlılarının hücumuna məruz qalmışdır. Karvanı müşayiət edən milis dəstəsinin komandiri Şahlar Şükürov idi. Dəstənin üzvləri oddan-alovdan keçmiş milis nəfərləri idilər. Sayca üstün olan düşmənin qabağından qaçmamışdılar. Qeyri-bərabər döyüş başlanmışdı. Azərbaycanın igid oğlanları son nəfəsinə qədər vuruşmuşdular. Həmin döyüşdə mayor Şahlar Şükürov da qəhrəmancasına həlak olmuşdur.

Şahlar Şükürov Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn edilmişdir.

Azərbaycan Prezidentinin 8 oktyabr 1992-ci il tarixli, 264 saylı Fərmanı ilə Şükürov Şahlar Əvəz oğlu, ölümündən sonra, "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Şahlar Şükürov ailəli idi. Özündən sonra iki övladı Vətənə əmanət qalmışdır.

Qədirbilən xalqımız igid oğlunun qəhrəmanlığını unutmamış, Zərdabda küçə, rayon məktəblərindən biri adına verilmişdir.

Allah rəhmət eləsin.

## SON NƏFƏSİNDƏ...
*(Elegiya)*

Deyirlər güllə yağışı altında –
son damla qanınadək,
axır nəfəsədək döyüşdü Şahlar.
Xainlər, bədxahlar
Əvəzoğlunu dayandırmırdı.
Kəlbəcərdə doğulmuşdu: -
Şimşək çaxan torpaqda,
Şəmşir çıxan torpaqdan.

Şahanə duruşu vardı
mayor Şahların.
Adına bənzəyirdi,
kökünə, zatına oxşayırdı.

Qəhrəman adı ona halal idi
ana südü kimi,
ata öyüdü kimi.
"Məni Zülfüqarlıda dəfn edin,
Dopdoğma kəndimdə" – dedi.
Və gözlərini yumdu əbədi.

## ONDAN BİZƏ ƏMANƏT
*(Elegiya)*

Babalarımızdan bizə ulu torpaq, qeyrət, namus, xeyirxahlıq, yaxşı əməl, yaxşı iş yadigar qalıb. Bunların hər biri olduqca vacibdir. Bu əmanətlərin içərisində yurd və onun yerləşdiyi torpaq çox müqəddəsdir, qorunmalıdır, bir qarış da özgəyə verilməməlidir!

Şahlar Şükürov Kəlbəcərin Zülfüqarlı kəndində boya-başa çatıb. Orta məktəb müəllimlərindən birindən xahiş edir ki, ona vətənpərvərlikdən və övlad borcundan danışsın. Bu mövzuda müəllim danışaraq deyir: "Hər bir insan ömrünün pillələri var ki, vətənpərvərlikdən güc-qüvvət, ilham, ruh alaraq öz istəyinə, məqsədinə doğru can atır. Daxili zənginliyə nail olmadan əsl vətənpərvər olmaq çətindir. O adamlar xalqın sevimlisinə çevrilir ki, milli-mənəvi dəyərlərə, daxili zənginliyə, elmə, biliyə nail olmaqla ailəsini, yurdunu, vətənini sevir. Xalq üçün, Vətən üçün yaşanan ömrə, aylara, illərə kamilliyin, ucalığın, fədakarlığın yol göstərəni də deyirlər. Yaşanan ömrün dəyərinə, mənasına ömrün azlığına, çoxluğuna görə yox, mənalı olmasına görə qiymət verilir. Hər bir şəxs öz yaşadığı vətəni üçün mübarizə aparır. Ömür payı ən mənalı və yaddaqa-

landır, insanı zirvəyə qaldırır, xalqın istədiyi bəndəyə çevirir...”

Müəllimin tövsiyə etdiyi qiymətli kəlamları Şahlar yaddan çıxarmadı, ona enişli-yoxuşlu yollarda kompas kimi bələdçi oldu. O, döyüşlərdə vətənpərvər olduğunu, düşmənin qarşısında əyilmədiyini, torpağa olan sevgisi uğrunda canını əsirgəmədiyini, xalqın yaddaşında əbədiyyətə necə nail olmağı öz timsalında göstərdi.

Şahlar Şükürov Qarabağın azad olunmasını, Azərbaycanın bütöv olmasını istəyirdi və bu yolda əbədiyyətə döndü. Qəhrəmanın varisləri – ordumuzun əsgər və zabitləri Vətən müharibəsində bu istəyi yerinə yetirib Qələbə qazandılar, Vətəni nigaran qoymadılar.

Eşq olsun Şahlar Şükürova və onun davamçılarına!





**Azərbaycanın Milli Qəhrəmanı**
**GÜLTƏKİN MƏLİK QIZI ƏSGƏROVA**
**(20.11.1960 - 20.06.1992)**

Gültəkin Əsgərova 20 noyabr 1960-cı ildə Bakı şəhərində anadan olmuşdur. 200 saylı orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, 1985-ci ildə ali məktəbi qurtarmışdır. Əmək fəaliyyətinə 8 saylı təcili yardım stansiyasında başlamışdır. Kifayət qədər təcrübə toplayandan sonra 1991-ci ildən Uroloji Klinik Xəstəxanasında işləmişdir.

Gültəkin Əsgərova qeyrətli xanım idi. Qarabağ müharibəsi başlayandan Bakıda özünə yer tapa bilmirdi. 4 aprel 1992-ci ildə körpəsini anasına tapşırıb cəbhəyə yollanmışdır. Bilirdi ki, erməni gülləsinə tuş gələn yaralı Vətən oğullarının təcili yardıma

ehtiyacları var. Turşsu və Şuşa xəstəxanalarında, Ağdam rayonunun Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi, cərrah kimi fəaliyyət göstərmişdi. Gültəkin Əsgərova hospitaldan beş tibb bacısını özü ilə götürərək döyüş meydanında, səngərlərdə tibb məntəqəsi yaratmışdı. Xəsarət alan əsgərlərimizə yerindəcə tibbi yardım göstərmiş, qanaxmanın qabağını almışdı.

1992-ci ilin may ayının əvvəlində Şuşa şəhər xəstəxanasına çağırılmış, həbsxanada vəziyyəti ağır olan bir məhbusa yardım eləmişdi. Həmin günlərdə şəhər gecə-gündüz ermənilər tərəfindən atəşə tutulurdu. Hər yerdə bir başıpozuqluq gözə çarpırdı. Şuşa şəhəri günlərini sayırdı. Gültəkin Əsgərova vəziyyətin ciddi olduğunu görürdü. Həbsxana qapılarının açılmağı, məhkumları azadlığa buraxmağı təklif eləmişdi. Məsləhəti eşidilmiş, 1992-ci il may ayının yeddisi həbsxananın qapıları açılmış, məhkumlar azadlığa buraxılmışdılar. Məhkumların ermənilərə əsir düşməyinin qarşısı alınmışdı.

Gültəkin Əsgərova Şuşanı axırıncı tərk edənlərdən biri olmuşdur. Anasına yazdığı məktubdan: "Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Mən qələbəyə qədər burdayam. Şuşa yenidən alınana qədər".

Şuşanın işğalından sonra Gültəkin Əsgərova Laçının, Qubadlının müdafiəsində iştirak eləmişdir. 14 may 1992-ci ildə Ağdamın Mahrızlı kəndindəki hospitala qayıtmışdı. Burda yenidən hərbi həkim kimi fəaliyyətə başlamışdı. Ona Aranzəmin yüksəkliyinin ətəyində tibb məntəqəsi üçün bina ayırmışdılar. Yaralılara ilkin tibbi yardım burada göstəriləcək, ağır yaralılar hospitala təxliyə ediləcəkdi.

Ağdam uğrunda mövqe döyüşləri gedirdi. Düşmən strateji Aranzəmin yüksəkliyini tutmağa çalışır, atəşin intensivliyini artırırdı. 1992-ci il 19 iyul tarixdə yaralanmış əsgəri döyüş meydanından çıxaran hərbi həkim Gültəkin Əsgərova qəhrəmancasına həlak olmuşdur.

Həmin gün UAZ markalı maşın şəhid xanımın tabutunu Azərbaycan Respublikası Müdafiə Nazirliyinə çatdırmışdı. Gültəkin Əsgərovanın nəşi Bakının Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Prezidentinin 20 noyabr 1993-cü il tarixli 31 saylı Fərmanı ilə Gültəkin Məlik qızı Əsgərova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Qəhrəman bacımız ailəli idi, Əminə adında bir qız övladı Vətənə əmanət qalmışdır.

Qədirbilən xalqımız qəhrəman qızını unutmadı. Gültəkin Əsgərovanın oxuduğu 200 saylı məktəb hazırda onun adını daşıyır, qarşısında qəhrəmanın büstü qoyulmuşdur. Nərimanov rayonundakı xəstəxananın önündə də büstü qoyulmuşdur. Bakıda yaşadığı Mustafa Kamal Atatürk prospekti, 2-A ünvanındakı binaya xatirə lövhəsi vurulmuşdur. Təfəkkür Universitetinin Tibbi biologiya kafedrası Gültəkin Əsgərovanın adını daşıyır, kafedrada xatirə lövhəsi vurulmuşdur. Xəzər dənizində üzən gəmilərdən biri onun adını daşıyır, gəmidə adına muzey də yaradılmışdır.

20 iyun 1914-cü ildə Nizami adına Kino Mərkəzində Gültəkin Əsgərovaya həsr edilmiş "Gültəkin" filminin təqdimatı keçirilib, onun qəhrəmanlığını işıqlandıran "Gültəkin zirvəsi" kitabı təqdim olunubdur.

Allah rəhmət eləsin.

## GÜLTƏKİN HƏKİM...
*(Elegiya)*

Bir cəsur qızıydı Azərbaycanın,
bilməzdi qorxunun nə olduğunu.
Gözü su içmirdi Ermənistandan,
birinci toqquşma başlanan günü.

Mənfur qonşuları doldurmuşdular,
onlar unutmuşdu çox haqqı-sayı.
Torpaq iddiası qaldırmışdılar.
Bir qarış yoxsa da bu yurddan payı.

Gültəkin həkim tək getdi cəbhəyə,
bir əlində sarğı, birində məlhəm.
Harda ki yaralı əsgər görürdü –
ona yardımını edirdi o dəm.

Gah Turşsuda oldu, gah da Ağdamda,
ad qoydu Şuşanın hospitalında.
"Türmədən məhkumlar buraxılsınlar!" –
demişdi qalanın ağır halında.

Oda-közə vurdu özünü bu qız
yolunu qorxulu yerlərə saldı.
Axır həlak oldu günün birində,
Əminə adında övladı qaldı.

## GÜLTƏKİN ZİRVƏSİ

*(Elegiya)*

Anasından əmdiyi halal südü qədər Milli Qəhrəman adına layiq görülən Gültəkin Əsgərovadan yazarkən qəhrəman qadınlarımızı xatırladım. Hərənin bəxtinə müxtəlif cür qəhrəmanlıq zirvəsinə ucalmaq düşür. O isə körpəsini anasına tapşıraraq, könüllü şəkildə cəbhəyə gedib vuruşan ali təhsilli yeganə qadın həkimdir. İstəsəydi Bakıda rahatlıqla həyat sürüb həkim işləyə bilərdi. Lakin qadın da olsa, onun kişi qeyrəti yol vermədi düşmənin torpaqlarımızı bir-bir işğal etməsinə sakitcə baxsın. Vətən çağıranda onun köməyinə çatıb yaralarına kim məlhəm qoymalıdır? Axı, vətən varlığımız, mənliyimizdir, bizim olmasa biz nəyə gərəyik?

O, hərdən körpəsi barədə düşünür, lakin vətən yanğısı övlad istəyini üstələyir, səbr edir, dözüm və mətanət göstərir, öz işini davam etdirirdi.

Ağdamın Mahrızlı kəndindəki hospitalda, Şuşa şəhər xəstəxanasında yaralılara tibbi yardım göstərərkən, səngərdə tibb məntəqəsi yaradarkən Gültəkin əsl fədakarlıq göstərdi. 1992-ci il 19 iyul tarixində Aranzəmin yüksəkliyi uğrunda döyüşdə yaralı əsgərimizi atəş mövqeyindən çıxararkən şəhid olmuş Gültəkin Əsgərova özündən çox sevdiyi

vətənə qurban getdi, neçə-neçə yaralı əsgərə həyat verdi, onları ölməyə qoymadı.

Xalq Gültəkinin adını layiqincə əbədiləşdirib.

Gültəkini cəbhəyə çəkib aparan vicdanın səsi idi. O, bir ana kimi yaralı əsgərlərin, şəhidlərin anaları qarşısında baş əyir, onlara xitabən deyirdi: "Bir anam – sən, biri – Vətən deyirlər. Qəhrəman övladlarımız vətəni ananı sevdiyi qədər sevirlər. Bu sevgi həm sənin, həm də vətən sevgisi qədərdir. Bu sevgiyə heç nə çatmaz. Bu sevginin əzəməti, ucalığı sonsuzdur..."

Gültəkin otuz ildir ki, aramızda yoxdur. Onun yoxluğunu ehtiramla xatırlayırıq, yad edirik, qəhrəmanlığıyla fəxr edirik...

Yəqin bizə yadigar qoyub getdiyi qızı Əminə də anası Gültəkinlə sonsuz qürur hissi keçirir. Belə qəhrəmanlarla qürur duymağa dəyər!

Gültəkinin ruhu, arzuları bu dünya durduqca yaşayacaq...





**Azərbaycanın Milli Qəhrəmanı**
**RAFİQ HÜSEYN OĞLU NƏSRƏDDİNOV**
**(18.03.1961 - 06.09.1992)**

Rafiq Nəsrəddinov 18 mart 1961-ci ildə Bakı şəhərində dənizçi ailəsində anadan olmuşdur. 1968-1978-ci illərdə Nərimanov rayonundakı 39 saylı orta məktəbdə təhsil almış, 1979-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. İki il tank qoşunlarında xidmətdən sonra 1981-ci ildə tərxis olunmuşdur. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş, 1987-ci ildə ali məktəbi müvəffəqiyyətlə bitirmişdir.

Birinci Qarabağ müharibəsi onu dinc məşğuliyyətindən ayırmışdı. 1992-ci ildə Səbail rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordunun sıralarına

səfərbərliyə alınmışdı. Yenicə yaranmaqda olan Milli Orduda tank az idi. Komandirlər maşını hər əsgərə tapşırmırdılar. Rafiq Nəsrəddinov Sovet Ordusunda tank qoşunlarında xidmət elədiyindən kifayət qədər təcrübəsi vardı. Bu onun işini asanlaşdırmış, təlimlərə vaxt sərf etmədən maşını ona etibar eləmişdilər.

Rafiq Nəsrəddinov cəbhədə etibarı doğrultdu. Onun idarə elədiyi tank erməni quldurlarına başını səngərdən qaldırmağa imkan vermirdi. Düşmənə verdiyi ağır itkilər, döyüşlərdəki igidliyi, təşkilatçılığı nəzərə alınmış, Rafiq Nəsrəddinov tank bölüyünün komandiri təyin olunmuşdu. Bu etibar gənci qanadlandırmışdı. Bölüyü cəbhənin ən qaynar istiqamətlərində uğur qazanırdı. Amma cəsur komandirin sonrakı taleyi faciəli olmuşdur. Onun son döyüşü Ağdərənin Qızılqaya kəndində olmuşdur. 6 sentyabr 1992-ci ildə baş tutan vuruşmada Rafiq Nəsrəddinov qəhrəmancasına həlak olmuşdur.

Nəşi Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə baş leytenant Nəsrəddinov Rafiq Hüseyn oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Xalqımızın igid oğlu ailəli idi, iki övladını Vətənə əmanət qalmışdır.

Qədirbilən xalqımız qəhrəman oğlunu unutmadı. Təhsil aldığı Nərimanov rayonundakı 39 saylı məktəb qəhrəmanın adını daşıyır, qarşısında büstü ucaldılıb. Yaşadığı binanın divarına xatirə lövhəsi vurulub.

Allah rəhmət eləsin.

## MİN OĞULA ƏVƏZ...
***(Elegiya)***

Oxuduğu 39 saylı məktəb
Bakıda adını daşıyır.
Təhsil ocağının həyətində,
baş leytenantın büstü ucalır.

Tank sürdü mətin zabit,
qalxdı Ağdərədən Qızılqayaya.
Vətən torpağını əzizləyirdi,
diz çökdü zirvədə, boylandı Aya.

Onun tank bölüyü
sədləri aşdı.
Düşmən gördü işi yaşdı,
aradan qaçdı.
Rafiq Nəsrəddinov təqib elədi,

birə düşdü erməninin kürkünə,
aləm bir-birinə dəydi, qarışdı...
Qırdığını qırdı Rafiq,
əzdiyini tankı əzdi.
O, elə bir igid idi,
min oğula əvəzdi.

## TORPAQ ONU AĞUŞUNA ÇƏKDİ
*(Elegiya)*

Siz torpağın ətrini duymusunuzmu? Min-bir rənginə, çalarına tamaşa edib bərəkəti, bizə həyat verən gücü qarşısında səcdə etmisinizmi?

Ana torpaq biri-üç edəndir, elədiyi yaxşılığın əvəzini istəməz, təmənna güdməz. Torpaq vətənin qüdrəti, onun yetirdiyi nemətlər qolumuzun gücüdür, firavan həyat bəxş edir...

Tank bölüyünün komandiri Rafiq Nəsrəddinov Qarabağın işğala məruz qalmış bərəkətli torpaqlarının nə vaxt azad ediləcəyi barədə çox düşünür, götür-qoy edirdi. Daxili bir hiss deyirdi ki, bu torpaqlara düşmən sahib ola bilməz!...

Yadına haçansa oxuduğu və yadında saxladığı ibrətamiz kəlamlar düşdü: "Şəhid verib azad etdiyin bu yurd, bu torpaq, bu vətən sənindir. İndi həsrət ilə baxdığın o dağlar, dərələr, meşələr, çöllər oylağımız olacaq – buna az qalıb. Ot basmış cığır-

lar, ayaq səslərindən oyanmış torpaq sənin olacaq, ayıq ol ancaq!...”

Dünya şöhrətli dövlət başçısı, qolubükülməz sərkərdə, Azərbaycanı yaradan Şah İsmayıl Xətainin dövlətçilik xidmətləri, hünəri hamıya bəllidir. Ulu Şah vətəni qorumağı müqəddəs iş hesab edir və deyirdi:

“Xəyalən olsa da, məmləkətin ətrafında at cövlan etdirməlisən”. Vətənsiz varlığımız, torpağımız, yurdumuz yoxdur. Qoynu bizə ana qucağı tək şirin olan vətən təkcə dağdan-daşdan ibarət deyil. Vətən qoruduğumuz sərhəddən, məmləkətin bayrağından başlanır.

Həzi Aslanovu özünə ideal qəhrəman seçən, ona oxşamaq istəyən tankçı Rafiq Nəsrəddinov belə düşünürdü. Çox təəssüflər olsun ki, o, Müzəffər Qələbəmizi görə bilmədi, ermənilərin qanı tökülmüş torpaqlarda gen-bol gəzib iftixar hissi keçirmədi. Onun əsgər yoldaşları Qarabağı 44 gün ərzində azad etdilər. Üçrəngli bayrağımız qürurla dalğalandı. Yurdumuzun hər yerində bayram tonqalları qalandı. Yəqin ki, şəhidlərin ruhu sevindi.

Şəhidlər həm nisgilimiz, kədərimiz, həm də qürurumuz, fəxrimizdir. Gənc nəsil onlardan mübarizə dərsi öyrənir.



**Azərbaycanın Milli Qəhrəmanı**
**KAMİL BALƏDƏ OĞLU NƏSİBOV**
**(08.10.1946 - 29.06.1992)**

Kamil Nəsibov 8 oktyabr 1946-cı ildə Laçın rayonunun Bozlu kəndində anadan olmuşdur. Mənşəcə kürddür. 1963-cü ildə Minkənd orta məktəbini bitirmişdir. Elə həmin il həqiqi hərbi xidmətə çağırılmış, 1966-cı ildə ordu sıralarından tərxis olunaraq Vətənə qayıtmışdır. Bir müddət kənd təsərrüfatı işlərində çalışmışdır. 1973-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur.

1992-ci ildə Laçın erməni silahlı dəstələrinin hücumuna məruz qaldığı zaman Kamil Nəsibov könüllülərdən ibarət özünümüdafiə bölüyü yaratmışdı. Komandiri olduğu otuz nəfərlik bölük ermənilərə aman vermirdi. Kamil Nəsibov Sadınlar,

Malıbəyli, Xanallar və Suarası kəndlərinin müdafiəsində böyük rəşadət göstərmişdir. Qeyri-bərabər döyüşlər gedirdi. Silah-sursat çatışmırdı, amma heç kim geri çəkilmək fikrində deyildi. Kamil Nəsibovun bölüyü cəbhənin ən çətin istiqamətlərində vuruşurdu.

1992-ci il 29 iyun tarixində Qonaqgörməz yüksəkliyi uğrunda qanlı döyüşlər gedirdi. Bölük uğurla irəliləyirdi. Döyüşlərin birində Kamil Nəsibov snayper gülləsindən ağır yaralandı. Döyüşçü dostları onu təhlükəsiz yerə çıxarmaq istədilər. Kamil isə döyüş meydanını tərk eləmək istəmədi. Dostları onunla razılaşmalı oldular. Hamı bilirdi ki, bu yüksəkliyi əldən vermək olmaz. Həmin gün Kamil Nəsibov qan itirməkdən həlak olmuşdur.

Nəşi Ağcabədi rayonunda torpağa tapşırılmışdır.

Azərbaycan Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Nəsibov Kamil Balədə oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Kamil Nəsibov ailəli idi, dörd övladı Vətənə əmanət qalmışdır.

Bozlu kəndindəki Mədəniyyət evi Kamil Nəsibovun adını daşıyır.

Allah rəhmət eləsin.

## KAMİLİN...

***(Elegiya)***

Yurd uğrunda canın fəda etsə də,
dillərdədir rəşadəti Kamilin.
Dağlar oğlu bu dünyadan getsə də,
Unudulmur sədaqəti Kamilin.

Tanıyırdı yüz bərəni, yüz bəndi,
Övladıydı min obanın, min kəndin.
At çapmışdı yaylağında Minkəndin,
gözəl idi hər adəti Kamilin.

Tez seçirdi o yaxşıdan yamanı,
danışırdı ürəyinə damanı...
Laçın idi eşqi, dini, imanı –
Kəsilmirdi ibadəti Kamilin.

Batmadı da göz yaşının selində,
Düşmənlərin fitnəsində, felində...
Yer götürdü Ağcabədi elində
Məzarıdır imarəti Kamilin.

## RUHUM DİLƏ GƏLDİ

***(Elegiya)***

*(Şəhid ruhu ilə söhbət)*

*Son damla qanımla paklanan yurda,*
*Ruhumla hər zaman qucaq açıram.*
*Şəhid Kamil kimi ana Vətənə,*
*Öz şəhid ruhumla işıq saçıram.*

Bu misraları necə də gözəl deyiblər. Mən 92-ci ilin yayında Laçının Sadınlar, Malıbəyli, Xanallar, Suarası kəndlərinin müdafiəsində qeyri-bərabər döyüşlərdə rəşadətlə vuruşanların sırasında idim. Qonaqgörməz yüksəkliyi uğrunda şiddətli döyüşlər gedirdi. Bölüyün komandiri mən idim, ona görə də ikiqat məsuliyyət daşıyırdım. Silah-sursat az olsa da, heç kim geri çəkilmirdi.

Düşmən snayperinin atdığı güllə məni ağır yaraladı. Silahdaşlarım məni təhlükəsiz yerə çıxarmaq istəsələr də razı olmadım. Elə həmin gün çoxlu qan itirdiyimdən həlak oldum. Cismimi Ağcabədidə tabuta qoyub böyük ehtiram ilə məni torpağa tapşırdılar. Ruhum göylərə uçmuşdu. Bütün mənzərələri ruhum səssizcə müşahidə edirdi. Yaxınlarımı ovundurmaq olmurdu. Üzüntülü olsa da, bu belə idi...

Heyhat, düşmən düşmənliyini etdi. Neçə-neçə yaşayış məntəqələrimiz, şəhərlərimiz, yurdumuz

yağmalandı. Quduz canavara dönmüş düşmən hər şeyimizi talayıb apardı, evlərimizi viran qoydu, sərvətlərimizə sahib çıxdı. Elə bil Qarabağın sahibi yox idi. Hərə öz canının hayında idi. Vətənin yaraları qan verirdi, harayına kimsə çata bilmirdi...

Günlər aya, aylar illərə qovuşdu. Yağı həyasızlığından, vəhşiliyindən qalmır, tez-tez atəşkəsi pozur, təxribatlar törədirdi. Neçə-neçə cəngavərin həyatı yarımçıq qaldı...

Vətən müharibəsindən sonra sakitlik tapdım. Düşmən elə bilirdi ki, ordumuz otuz il əvvəlkidir. Özünə çox güvəndiyi üçün də məğlub oldu. Biz qələbə qazandıq. Neçə illərin həsrətinə son qoyuldu.

Vətəni azad görmək nə gözəldir!

Cismimizlə toxunmasaq da, ruhumuzla vətəni başdan-başa süzürük.

Çox xoşdur ki, illər ötməsinə baxmayaraq xalqım məni unutmayıb.

Övladlarımın qəlbindəki həsrəti duyuram.

Mənsiz qalanların acı çəkməyini istəmirəm.

Mənim ruhum sonsuzadək yaşayacaq...





**Azərbaycan Respublikasının**
**Vətən Müharibəsi Qəhrəmanı**
**AZAD ARİF OĞLU HÜMBƏTOV**
**(24.01.1996 - 27.10.2020)**

Azad Hümbətov 24 yanvar 1996-cı ildə Bakı şəhərində anadan olmuşdur. Əslən Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndindəndir. Nərimanov rayonu 291 saylı ekologiya təmayüllü liseyi bitirmişdir. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. Tank bölüyü ixtisasına yiyələnərək 2017-ci ildə həmin məktəbi leytenant hərbi rütbəsi ilə bitirmiş, təyinatı üzrə Füzuli rayonundakı hərbi hissədə vəzifə borcunu yerinə yetirməyə başlamışdır. 2018-ci ildə “Azərbaycan Ordusunun 100 illiyi” müna-

sibətilə keçirilən hərbi tədbirdə sıranın bayraqdarı təyin edilmişdir. Tədbirdən sonra “Azərbaycan Ordusunun 100 illiyi” medalı ilə təltif olunmuşdur.

Həmin il Azad Hümbətov peşəkarlığını artırmaq üçün Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində 45 günlük zabit heyətinin təkmilləşdirmə kursunu keçərək baş leytenant rütbəsi almışdır.

44 günlük Vətən Müharibəsi başlayanda Azad Hümbətovun tank taqımı döyüşün ilk sıralarında idi. Qoşunlarımızın Füzuli və Qubadlı istiqamətində hücumlarında iştirak etmişdir. Elə ilk günlərdə Azad Hümbətovun tank taqımı düşmənin beş tankını sıradan çıxarmışdı. Komandası qaçmış erməni tankları başlı-başına qalmışdı. Komandir öz həyatını təhlükəyə ataraq düşmənin tanklarını mövqelərimizə gətirmişdi. Tabeliyində olan əsgərlərlə qayğı ilə rəftar edirdi. Dəfələrlə düşmən mühasirəsində qalmış yaralı yoldaşlarını xilas etmək üçün müstəsna qəhrəmanlıq göstərmişdi.

Qubadlı istiqamətində hücum zamanı Azad Hümbətovun idarə elədiyi tank minaya düşmüş, maşın sıradan çıxmışdı. Tankın mexaniki ağır xəsarət almışdı, huşsuz vəziyyətdə idi. Özü də ayağından yaralanmış Azad Hümbətov döyüş yoldaşını iyirmi beş kilometr çiynində daşımış, meşəlikdən keçirmiş, iki gündən sonra ərazimizə gətirib çıxarmış, Beyləqandakı hospitala təhvil vermişdi.

Özünün də müalicəyə ehtiyac olduğundan hospitalda qalmalı olmuşdu. Amma Azad Hümbətov burda çox yubanmır, müalicəsini yarımçıq qoyub cəbhəyə qayıdır.

Yaralanmağını Bakıda yaşayan ailəsinə bildirməmiş, müalicəni yarımçıq qoyub döyüş meydanına qayıtmağından da yaxınları şəhid olandan sonra xəbər tutmuşdular.

44 günlük müharibə ildırım sürətli müharibə idi. Döyüş mövqeləri hər gün, hətta, hər saat dəyişilirdi. Qısa vaxtda qoşunlarımız artıq Laçın rayonunu erməni işğalçılarından azad edirdilər. Cəbhəyə qayıtmış tankçı Azad Hümbətovu piyada bölüyünün komandiri təyin edirlər. Laçın uğrunda gərgin döyüşlər gedirdi, ermənilər müqavimət göstərirdilər. Belə döyüşlərin birində Azad Hümbətov qəhrəmanlıqla həlak oldu.

Xalqımızın şəhid oğlu İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycan Prezidentinin 9 dekabr 2020-ci il Sərəncamı ilə İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətə görə baş leytenant Hümbətov Azad Arif oğlu (ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Qədirbilən xalqımız qəhrəman oğlunu yaddan çıxarmadı. 2021-ci ilin dekabrında Bakı şəhərinin

mərkəzi küçələrindən birinə Azad Hümbətovun adı verilmişdir.

Baş leytenant Azad Hümbətov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Allah rəhmət eləsin.

## BARIŞA BİLMƏDİ...

*(Elegiya)*

Baş leytenant idi peşəkar zabit
baxırdı hər döyüş tapşırığına.
Gizlənmək yad idi təbiətinə -
Girərək səngərə, evə sığına.

Hələ oxuyarkən hərbi məktəbdə,
bir dəfə qalmırdı mühazirədən.
O ki 44 günün qəhrəmanıydı,
keçdi min həmlədə mühasirədən.

Savaşdan çıxmazdı bircə an belə,
yaralı-yaralı qan itirirdi.
Ona "geri qayıt" demək olmurdu,
Heydən düşə-düşə can itirdi.

Barışa bilməzdi məğlubiyyətlə,
axı yaraşmazdı qalibə kədər.
Zabit həyatının məğrurluğunu,
Azad dəyişmədi ölənə qədər.

## TANKÇI QƏHRƏMAN ZABİT
*(Elegiya)*

Vətən müharibəsinin qəhrəmanı Azad Hümbətovun ömrü qısa olsa da, şərəfli və unudulmazdır, yaddaqalandır. Tank bölüyünün komandiri ali hərbi təhsilə malik idi.

Hələ Vətən müharibəsi başlamamışdı. İşğalçı düşmənin təcavüzkarlığı, böyük bir ərazini zəbt etməsi, həm hərbi hissələrimizə, həm də kənd və qəsəbələrimizə tez-tez atəş açması, təxribatlar törətməsi, sülh danışıqlarını pozması, özünü bizdən üstün tutması Azad Hümbətovu hər gün düşündürür, narahat edirdi. Bir çox sualların cavabı tapılmasa da həqiqətin, haqqın-ədalətin qalib gəlməsinə inanırdı.

Müharibə olmamışdan qabaq hərbçi olmayan dostları ilə həmsöhbət olarkən Azad demişdi: "Əgər müharibə başlasa, mən ilk gündən cəbhədə olacağam. Əgər sabah müharibədə bir ayağını, bir qolunu itirən dostlarımdan, əsgərlərdən biri ilə rastlaşsam vicdan əzabı çəkərəm, özümü heç vaxt bağışlamaram".

Onun büruzə vermədiyi, amma daxilən yaşadığı vətən sevgisi cəbhədə, torpaqlarımızı azad edərkən özünü göstərdi. Füzuli, Qubadlı, Laçın, Xocavənd uğrunda vuruşmalarda onun komandir olduğu bölük böyük hünər və qəhrəmanlıq göstərdi. İlk günlərdə düşmənin beş tankı sıradan çıxarılmışdı. Azad öz həyatını təhlükəyə ataraq sahibsiz qalmış düşmən tanklarını mövqelərimizə gətirmişdi. Yaralı yoldaşını iki gün çiynində daşıyaraq, hospitala çatdırmışdı. Özü isə müalicəsini yarımçıq qoyub cəbhəyə qayıtmışdı... Laçın istiqamətində gedən ağır döyüşlərin birində tank komandiri rəşadət nümunəsi göstərərək şəhid oldu...

Şəhidlik zirvəsinə ucalan igidlərimizin yoxluğu ilə barışmaq çətin olsa da, azad edilmiş vətən torpağı, bütövlüyə qovuşmağımız bizə təsəlli oldu. Qəhrəman əsgər və zabitlərimiz, ordu bölmələrimiz döyüş meydanlarında hünər göstərərək Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırdılar. Xalqın birliyi və ədalətli mövqeyi, Prezidentin qətiyyəti, sərkərdəlik məharəti, ordunun hünəri, fədakarlığı, müasir taktiki gedişləri böyük Zəfərə yol açdı. Biz Qələbəni döyüş meydanlarında qazandıq.

Azad Hümbətov kimi igidlərimizin qəhrəmanlığı sayəsində!...



**Azərbaycan Respublikasının**
**Vətən Müharibəsi Qəhrəmanı**
**ZAUR İSMAYIL OĞLU NUDİRƏLİYEV**
**(01.09.1978 - 04.10.2020)**

Zaur Nudirəliyev 1978-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olmuşdur. Uşaq yaşlarından atasını itirmişdi. 1985-ci ildə Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 192 saylı orta məktəbin birinci sinfinə getmiş, 1992-ci ilə qədər orda oxumuşdur. Doxsanıncı illərdə Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları Birinci Qarabağ müharibəsinin alovlanmasına gətirib çıxarmışdı. Vətən sevgisi gənc Zaur Nudirəliyevi hərbçi olmağa sövq eləmiş, 1995-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi

bitirmişdir. Elə həmin il də Türkiyə Ali Hərbi Hava Qüvvələri Məktəbinə daxil olmuşdur. 2000-ci ildə "təyyarəçi" ixtisasına yiyələnib Vətənə qayıtmış, Kürdəmir aviabazasında aviasiya eskadrilyasının təyyarəçisi, 2004-cü ildən isə baş təyyarəçisi vəzifələrində xidmət eləmişdir. 2007-ci ildən 2009-cu ilə qədər Kürdəmir aviabazasında aviasiya eskadrilyasının manqa komandiri kimi çalışmış, 2011-ci ilə kimi aviasiya eskadrilyasında komandirin müavini - şturman vəzifəsində xidmət eləmişdir.

2011-ci ildən 2013-cü ilə qədər Almaniyanın Hürt şəhərindəki general-admirallar üçün olan hərbi liseydə qiyabi təhsil almışdır. Paralel olaraq həmin illərdə Kürdəmir aviabazasında aviasiya eskadrilyasının qərargah rəisi vəzifəsində çalışmışdır.

2013-cü ildən 2015-ci ilə qədər Zaur Nudirəliyev yuxarıda adı çəkilən aviabazada eskadrilya komandiri olmuşdur. Daha sonra Kürdəmir aviabazasında komandirin uçuş hazırlığı üzrə müavini və uçuşları planlaşdırma bölməsinin rəisi vəzifəsinə keçirilmişdir. İyirmi illik qüsursuz xidmətlərinə görə medallarla təltif edilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin bölmələri genişmiqyaslı təxribatlar törədərək təmas xətti boyu Azərbaycan Ordusunun mövqelərini, dinc yaşayış məntəqələrini iriçaplı si-

lahlardan, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdur. Bu barədə məlumat alan Azərbaycan Prezidenti ölkənin Silahlı Qüvvələrinə cəbhə boyu hücum əməliyyatları keçirməyi əmr etmişdir.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Komandanlığı müharibəyə hazır idi, hücum əməliyyatlarına ən təcrübəli təyyarəçilər cəlb edilmişdi. Su-25 tili qırıcı təyyarələri havaya qaldırıldı. Kürdəmir aviabazasının komandirinə döyüşün yeni üsullarını tətbiq eləmək tapşırığı verilmişdi. Polkovnik Zaur Nudirəliyev hücumlarda şəxsən iştirak edir, hər dəfə təyyarələrdən birinin şturvalı arxasında otururdu. O, nişangahdan istifadə etmədən, riyazi üsullarla bomba atılmasının yeni üsulunu tətbiq edirdi.

Sonra daha bir yeniliyə imza atmışdı. Polkovnik Su-25 hücum təyyarəsindən lazer bombalarının atılmasını da reallaşdırmışdı. Onun başçılıq elədiyi eskadrilyanın Cəbrayıl, Füzuli və Ağdərə istiqamətində endirdiyi dəqiq zərbələr düşmən silahlı qüvvələrinin dayaq məntəqələrini, canlı qüvvəsinin cəmləşmə yerlərini məhv edirdi. Nəticədə Azərbaycan Ordusu ciddi üstünlüklərə sahiblənmiş, hücum əməliyyatları intensivləşmişdi. Yeddi gün ərzində on iki uğurlu uçuş keçirən polkovnik

Zaur Nudirəliyev on üçüncü uçuşunu həyata keçirmək əmri almışdı.

Komandanlıq tərəfindən 2020-ci il oktyabrın dördündə Cəbrayıl rayonu istiqamətində hədəflər müəyyənləşdirilmişdi. Zaur Nudirəliyevin idarə elədiyi Su-25 təyyarəsi verilən tapşırığı yerinə yetirmək üçün havaya qalxmışdı. Təyin olunan hədəfə yaxınlaşan zaman İdarəetmə Məntəqəsinə düşmənin Hava Hücumundan Müdafiə Qoşunlarının hazırlıq vəziyyətinə gətirilməsi barədə məlumat daxil olmuşdu. İdarəetmə Mərkəzi Zaur Nudirəliyevin idarə elədiyi Su-25 təyyarəsinin vurulma ehtimalını nəzərə alaraq təyyarəçiyə geri qayıtmaq tapşırığı vermişdi. Tapşırığı yerinə yetirmək mümkün olmamışdı. Həmin vaxt Zaur Nudirəliyev təyin olunmuş hədəfi bombalayıb geri qayıdırdı. Artıq onun idarə elədiyi Su-25 təyyarəsi düşmənin Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən aşkar edilmişdi. Bundan sonra polkovnik çağırışlara cavab verməmişdi. Sonra, kəşfiyyat məlumatlarından məlum oldu ki, ağır yaralanmış Zaur Nudirəliyev təyyarədən katapult edə bilərmiş. Amma polkovnik əsir düşəcəyini anlayıb yanan təyyarəni düşmənin silahlı qüvvələrinin cəmləşdiyi səngərlərə çırpmağa, mərdliklə həlak olmağa üstünlük vermişdir. Bu, Azərbaycan hərb tarixində birinci "taran" hadisəsi idi. Zaur Nudirəliyev 1941-ci ildə sovet hərbi

pilotu Nikolay Qastellonun rəşadətini təkrarlayan ilk Azərbaycan pilotu olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlığına görə polkovnik Zaur Nudirəliyevə, Azərbaycan Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, ölümündən sonra, “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmişdir. Elimizin qəhrəman oğlu həmçinin “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Suqovuşanın azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə də təltif edilmişdir.

Zaur Nudirəliyev ailəli idi. Xalqımıza Pəri adında qızı və Ömər adında oğlu yadigar qalmışdır.

Qədirbilən xalqımız tərəfindən qəhrəmanın xatirəsi əbədiləşdirilmiş, Bakı şəhərindəki 47 nömrəli məktəbə, mərkəzi küçələrdən birinə Zaur Nudirəliyevin adı verilmişdir.

Allah rəhmət eləsin.

## QARABAĞ SƏMASINDA…
### *(Elegiya)*

Su-25 uçağıyla
“taran” etdi düşməni.
Bombaladı ətrafı,
Ancaq yerə düşmədi.

Bizim hərb tarixinin
Yenilməz qəhrəmanı.
Valeh etdi hamını,
heyran qoydu zamanı.

Cəbrayıl, Suqovuşan
Şahiddi şücaətə.
Diz sökdürdü yağıya,
gətirdi itaətə...

Ali rütbəsi vardı,
polkovnik idi Zaur.
Susdurdu havadarı,
kiridi xain gavur.

Səhər-axşam bilmədi –
Nağıl yazdı necə var.
Qarabağ səmasında
adına bir küçə var.

# POLKOVNİKİN QEYRİ-ADİ QƏHRƏMANLIĞI

*(Elegiya)*

Birinci Qarabağ müharibəsində öz sərhədlərini bizim torpaqlarımız hesabına artırmaq istəyən bədxah və məkrli düşmənlərimizin qarşısını almaq hər bir azərbaycanlını hər gün düşündürür. Yurdu qorumaq üçün mərd və qeyrətli övladlar düşməni qəsb etdiyi torpaqlarda qarşılayır, ölüm-dirim döyüşlərində onları məhv edirlər. İgid əsgər və zabitlərimiz düşməni işğal etdiyi torpaqlardan qovub çıxarmaq üçün hər şeyə hazır idilər. Belə qəhrəmanlardan biri – Zaur Nudirəliyevin bənzəri olmayan qəhrəmanlığı bir dastan idi. Onun həyatını, hərb elminə yiyələnməsini, döyüş təyyarəsini idarə edərək göstərdiyi qəhrəmanlığını təsvir etmək elə də asan deyil. Ömrünün ən parlaq çağında o elə bir qəhrəmanlıq göstərdi ki, nəinki təyyarəçi həmkarları, bütün xalqımız fəxr etdi. Düşmənin özü isə heyrətə gəldi. Əlbəttə, belə qəhrəmanları olan ölkə heç vaxt yenilməz, düşmənin qarşısında əyilməz!

Nədən ibarət olmuşdu polkovnik Zaur Nudirəliyevin rəşadəti, qətiyyəti. Bəli, əsl vətənini sevən, onu varlığından uca tutan, uğrunda həyatını, özünü belə əsirgəməyən, düşməni heyrətləndirib son anda belə ondan qisasını alan vətən oğlu yalnız belə hərəkət edərdi!

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək bütün təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini, dinc yaşayış məntəqələrini müxtəlif silahlardan, artilleriya qurğularından intensiv atəşə tutmuşdu. Bu barədə dəqiq məlumat alan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ordumuza cəbhə boyu hücuma keçmək əmrini verdi. Şəxs heyət, xalqımız bu günü çoxdan gözləyirdi. BMT-nin, ATƏT-in, Minsk Qrupunun otuz ilə yaxın edə bilmədiyini Azərbaycan əsgəri etdi. Ədalət bərpa edildi, əsir məmləkət işğaldan azadlığa çıxdı.

Şanlı Qələbə qazananların sırasında Zaur Nudirəliyev də vardı. Su-25 qırıcı təyyarəsi ilə Füzuli, Cəbrayıl, Ağdərə istiqamətində endirdiyi dəqiq zərbələrlə düşmənin dayaq məntəqələrini, canlı qüvvəsini məhv edirdi. Polkovnik bir həftədə 12 uğurlu uçuş həyata keçirmişdi. Növbəti əməliyyatdan qayıdarkən düşmənin hava qüvvələri tərəfindən vurulur. Cəsur pilot Zaur Nuridəliyev yanan təyyarəsini düşmənin sıx olduğu səngərlərə çırpır, mərdliklə şəhid olur. O, 1941-ci ildə Sovet hərbi pilotu N.Qastellonun rəşadətini təkrarlayan ilk Azərbaycan pilotu idi. Ölməzliyi ilə əbədiyaşarlıq qazandı.

# MÜNDƏRİCAT

Azərbaycanın Milli Qəhrəmanı
MƏMMƏDOV SAHİL ƏLƏMDAR OĞLU
(25.02.1964) ........................................................................ 6
Azərbaycanın Milli Qəhrəmanı
İBAD MÖVSÜM OĞLU HÜSEYNOV
(18.10.1970) ........................................................................ 11

Azərbaycanın Milli Qəhrəmanı
ZABİT ADİL OĞLU QULİYEV
(06.06.1975 ) ........................................................................ 18

Azərbaycanın Milli Qəhrəmanı
SAMİR ZİRƏDDİN OĞLU XASIYEV
(20.04.1973 - 17.03.1995) ........................................................ 23

Azərbaycanın Milli Qəhrəmanı
İLQAR SƏDİ OĞLU İSMAYILOV
(29.03.1959 – 01.10.1992) ........................................................ 29

Azərbaycanın Milli Qəhrəmanı
SƏFA FƏTULLA OĞLU AXUNDOV
(19.06.1958 - 28.01.1992) ........................................................ 34
Azərbaycanın Milli Qəhrəmanı
KOROĞLU İSMAYIL OĞLU RƏHİMOV
(31.11.1953 - 03.07.1992) ........................................................ 39

Azərbaycanın Milli Qəhrəmanı
ƏLİYAR YUSİF OĞLU ƏLİYEV
(14.12.1957 - 03.10.1992) ........................................................ 47

Azərbaycanın Milli Qəhrəmanı
RİZVAN RƏHMAN OĞLU TEYMUROV
(16.04.1967 - 09.12.1991) ........................................................ 57

Azərbaycanın Milli Qəhrəmanı
ŞAHLAR ƏVƏZ OĞLU ŞÜKÜROV
(17.05.1952 - 08.05.1990) ........................................................ 62

Azərbaycanın Milli Qəhrəmanı
GÜLTƏKİN MƏLİK QIZI ƏSGƏROVA
(20.11.1960 - 20.06.1992) ....................................................... 67

Azərbaycanın Milli Qəhrəmanı
RAFİQ HÜSEYN OĞLU NƏSRƏDDİNOV
(18.03.1961 - 06.09.1992) ........................................................ 74

Azərbaycanın Milli Qəhrəmanı
KAMİL BALƏDƏ OĞLU NƏSİBOV
(08.10.1946 - 29.06.1992) ........................................................ 79

Azərbaycan Respublikasının
Vətən Müharibəsi Qəhrəmanı
AZAD ARİF OĞLU HÜMBƏTOV
(24.01.1996 - 27.10.2020) ........................................................ 84

Azərbaycan Respublikasının
Vətən Müharibəsi Qəhrəmanı
ZAUR İSMAYIL OĞLU NUDİRƏLİYEV
(01.09.1978 - 04.10.2020) ........................................................ 90